İstehlakçı etibarının qazanılması: **halal məhsullar istehsalı və satışı**

SƏH. 2 | SOSium

Технологическое развитие и маркетинг

SƏH. 4 | MARKETİNQ

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

№22 (816)
6 - 12 İyun
2014-cü il

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

XXI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisi dünya miqyasında öz nadir rolunu saxlamaqdadır

İyunun 3-də Bakı Sərgi Mərkəzində XXI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgi və konfransı işə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Respublikamızın paytaxtında ənənəvi olaraq keçirilən neft-qaz sərgi və konfransı Xəzəryanı regionda ən böyük belə mötəbər tədbirdir. Burada neft, qaz hasilatı və emalı, həmçinin nəqletmə, logistika və servis sahəsində qabaqcıl texnologiyalar nümayiş etdirilir. Sərgi beynəlxalq standartlara cavab verən Bakı Sərgi Mərkəzində keçirilməyə başlayandan yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. XXI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisində 29 ölkədən 400-dən çox şirkət təmsil olunur. Bunların əksəriyyəti dünyanın ən nüfuzlu şirkətləridir və onların bir qismini "Əsrin Müqaviləsi"nin iştirakçıları təşkil edir.

Budəfəki sərgidə Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Çin və Rusiyadan 8 milli qrup təmsil olunur. Bu tədbirdə ölkəmizin şirkətləri ildən-ilə daha geniş təmsil olunur və cari sərgidə də iştirakçıların təqribən 30 faizdən çoxunu yerli iqtisadi qurumlar təşkil edir. Əvvəlki sərgi ilə müqayisədə ekspozisiyaların sahəsi 10 faiz çoxdur. Sərginin bir sıra iştirakçıları bu tədbirə ilk dəfə qatılmışdır. Təşkilatçılar sərginin beynəlxalq səviyyədə də dolğun işıqlandırılması üçün hərtərəfli iş aparmışlar. Sərgi və konfransın işgüzar proqramı genişdir və əməkdaşlığın daha da möhkəmləndirilməsinə hərtərəfli imkanlar açır.

Dövlətimizin başçısı mərasimdə nitq söyləmişdir. O, demişdir: -

- Bu sərgi ölkəmizin müasir həyatında çox önəmli rol oynayır. Əslində bu sərgi müstəqil Azərbaycana dünyanın diqqətini cəlb edən birinci ən önəmli addım olmuşdur. Bu sərgi 21-ci dəfədir ki, keçirilir. Sərgiyə isə maraq azalmır, artır. Bu gün sərgidə 400-dən artıq şirkət təmsil olunur. Onlardan bəziləri ilk dəfə iştirak edir, bəziləri isə bizim ənənəvi tərəfdaşlarımızdır.

Sərgidə iştirak edən şirkətlərin sayı ildən-ilə artmaqdadır və bu, çox gözəl hadisədir, çox önəmli əlamətdir. Çünki Azərbaycanın neft-qaz sektoru imkanlarını və fəaliyyətini ildən-ilə genişləndirir.

Prezident son illər ərzində qazanılmış uğurların tərəfdaşlarla birgə əldə edildiyini vurğulamış, qeyd etmişdir ki, bp kimi tərəfdaşımız olduğuna böyük önəm verir. O, demişdir: - Azərbaycanın neft-qaz sənayesinə qoyulan sərmayə, yaradılmış gözəl investisiya iqlimi, xarici investorların sərmayələrinin qorunması, güclü siyasi iradə və qurulan gözəl beynəlxalq əməkdaşlıq bugünkü reallıqları mümkün etmişdir.

SƏH. 2

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı regional əlaqələrin daha da genişləndirilməsi işinə töhfədir

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı türkdilli xalqlar və ölkələr arasında əməkdaşlığın, regional əlaqələrin daha da genişləndirilməsi işinə töhfədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında iştirak etmək üçün iyunun 4-də Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Bodrumda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir:

- Bizim Sizinlə görüşlərimiz, eləcə də xarici işlər nazirlərinin digər səviyyələrdə müntəzəm görüşləri münasibətlərimizin xarakterini bariz şəkildə göstərir. Bu, yaxın dostluq, qardaşlıq münasibətləridir. Biz bir-birimizə xeyirxahlıq, sülh arzulayırıq, bütün istiqamətlərdə əməkdaşlığı daha da gücləndirmək niyyətindəyik.

İqtisadi istiqamətdə də, əlbəttə ki, potensialımız böyükdür, əmtəə dövriyyəsi artır. Düşünürəm ki, gələcəkdə indiyədək istifadə olunmayan imkanları da işə salacağıq. Əlbəttə ki, enerji, nəqliyyat təhlükəsizliyi məsələləri ölkələrimiz arasında paralel həllini tapır. Bu, ondan irəli gəlir ki, biz vəziyyəti düzgün qiymətləndiririk, ölkələrimizin inkişafını iqtisadiyyatın möhkəmləndirilməsində və regional əməkdaşlığı inkişaf etdirməkdə görürük.

Mən bilirəm ki, Azərbaycanda olduğu kimi, Türkmənistanda da böyük müasir liman tikilir. Bu yeni limanlar bizim ölkələrimiz və xalqlarımıza xidmət edəcəkdir. Biz Xəzər vasitəsilə yük daşınmasını daha da artıracağıq və bununla da iqtisadi potensialımızı möhkəmləndirəcəyik.

Həmçinin, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq paralel templərlə inkişaf edir. Bu sahə də xalqlarımızın rifahına, tərəqqisinə xidmət edir. Düşünürəm ki, bu layihələr, eləcə də Xəzərdə təhlükəsizliyin və ekoloji tarazlığın birgə qorunması səyləri vəziyyətin müsbət həllinə öz təsirini göstərəcəkdir.

* * *

İyunun 4-də Bodrumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurlu inkişafından məmnunluq ifadə edilmiş, strateji əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik bildirilmişdir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısının türkdilli xalqlar və ölkələr arasında əməkdaşlığın, regional əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verəcəyi vurğulanmışdır.

Söhbət zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

İyunun 4-də Bodrumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunmuşdur. Əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edilmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə Avrasiya Ali İqtisadi Şurasının iclasında Ermənistanın Gömrük İttifaqına üzvlüyü ilə bağlı Azərbaycanın mövqeyini dəstəklədiyinə görə öz adından və xalqımızın adından təşəkkürünü bildirmişdir.

* * *

İyunun 4-də axşam Bodrumda Türkiyə Prezidenti Abdullah Gülün adından dövlət başçılarının şərəfinə şam yeməyi verilmişdir.

TuranBanka 7 il müddətinə 7 mln. ABŞ dolları kredit ayrılıb

TuranBank WorldBusiness Capital, Inc. (WBC) ilə 7 il müddətinə əlavə 7 mln. ABŞ dolları məbləğində kredit sazişi imzalamışdır.

Bankın yaydığı məlumata görə, kredit resursu Banka cari ilin 2-ci rübü ərzində WBC şirkəti ilə aparılan danışıqlar nəticəsində ayrılmışdır.

İmzalanmış kredit müqaviləsi ABŞ hökumət agentliyi olan Xarici Özəl İnvestisiya Korporasiyası (Overseas Private Investment Corporation) tərəfindən dəstəklənmişdir. Ümumilikdə, 7 il müddətinə cəlb olunan vəsaitlər Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsinə istiqamətlənərək, Bankın mövcud və yeni müştəriləri arasında kiçik və orta biznes layihələrinin maliyyələşdirilməsi istiqamətində imkanlarını daha da genişləndirəcəkdir.

Bankın WBC şirkəti ilə hazırda imzaladığı kredit sazişi sayca ikincidir. İlk kredit sazişi 29.06.2009-cu il tarixində 10 il müddətinə 7.5 mln. ABŞ dolları məbləğinə KOS-un maliyyələşdirilməsi istiqamətində imzalanmışdır.

WBC/OPIC-lə yanaşı, Bank kiçik və orta sahibkarlıq subyektlərinin lazımi maliyyə vəsaitləri ilə təmin edilməsi üçün yerli qurumlardan Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, beynəlxalq maliyyə qurumlarından isə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Dünya Bankı qrupu (World Bank Group), o cümlədən Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Beynəlxalq İnkişaf Assosiasiyası (IDA), eyni zamanda, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), İslam İnkişaf Bankı qrupu, o cümlədən Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD), Beynəlxalq Ticarətin Maliy-yələşdirilməsi üzrə İslam Korporasiyası (ITFC), Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB), Bank im Bistum Essen, Societe Generale, BCP, ZiraatBank, BankAsiya ilə birgə layihələr həyata keçirməklə ölkə üçün önəmli olan qeyri-neft sektorunun inkişafına öz töhfəsini verməkdədir.

Bioloji Təbabət Klinikası
Almaniya – Azərbaycan

Üstünlükləri:

- Özünübərpa və müdafiə sistemlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYINƏLƏR:

- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi(osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- İmedis-kompüter vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ
- PZR laboratoriya aparatı vasitəsi ilə dəqiq və keyfiyyətli analizlər

MÜALICƏLƏR:

- Plazmaferez
- Ozonoterapiya
- Son texnologiyalı apparatlarla təchiz olunmuş müasir fizioterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma və zəli terapiyası
- Tibbi kosmetologiya

Ünvan: 3-cü mkr., Cavadxan küç. 24, (Memar Əcəmi metro stansiyasının yaxınlığında)
Telefon: (012)/(070) (050)/(055) 430 89 89
www.biolojitababat.az

XXI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisi dünya miqyasında öz nadir rolunu saxlamaqdadır

(əvvəli 1-ci səhifədə)

Bu gün bizim imkanlarımız nəinki ölkə daxilində məsələlərin həlli üçün, eyni zamanda, regionda və geniş mənada bölgədə neft-qaz siyasətinin müəyyən edilməsində də öz rolunu oynayır. Azərbaycan, əlbəttə ki, getdikcə öz imkanlarını genişləndirəcəkdir.

Dövlət başçısı qeyd etmişdir ki, Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. Bildiyiniz kimi, ilk neft dünyada Azərbaycanda hasil edilmişdir və dəniz yataqlarından da ilk neft məhz Azərbaycanda, Neft daşlarında çıxarılmışdır. Bu gün Azərbay-canın neft ölkəsi kimi şöhrəti tam şəkildə bərpa edilib və bu, özünü əvvəlki illərdəkindən daha da çox büruzə verir.

Ancaq bu gün Azərbaycan dünyada və Avropada daha çox qaz hasil edən ölkə kimi tanınır. Bu gün təbii qaz ölkələrin enerji təhlükəsizliyini təmin edən əsas amildir. Hər bir ölkənin enerji təhlükəsizliyi bu gün bilavasitə ölkələrin milli təhlükəsizliyi ilə bağlıdır. Bu iki amili bir-birindən ayırmaq mümkün deyildir. 1996-cı ildə - "Əsrin Kontraktı"nın imzalanmasından cəmi iki il sonra "Şahdəniz" qaz yatağının işlənilməsi ilə bağlı imzalanmış müqavilə bu gün, əlbəttə ki, xüsusi məna daşıyır. O illərdə də biz bilirik ki, Azərbaycanın zəngin qaz yataqları var idi və məhz "Şahdəniz" qaz yatağının işlənilməsi bunu təsdiq etdi.

Onu da qeyd etməliyəm ki, TANAP və TAP layihələri Avropaya qazı yeni mənbədən gətirəcəkdir. Bu, sadəcə olaraq yeni marşrut deyildir. Bu, yeni marşrut, yeni mənbədir və bu layihənin xüsusiyyəti məhz ondan ibarətdir. Əlbəttə ki, layihənin həcmi də çox böyükdür.

İlkin hesablamalara görə, 45 milyard dollar vəsait nəzərdə tutulubdur. Azərbaycan da öz maliyyə imkanlarını ortaya qoyur. Hər halda TANAP layihəsində səhmlərin böyük hissəsi Azərbaycana məxsusdur, yəni, biz ən böyük investoruq. TAP layihəsində, "Şahdəniz"də də biz iştirak edirik. Yəni ki, Azərbaycan həm siyasi iradəni ortaya qoyur, öz düşünülmüş neft strategiyasını həyata keçirir, eyni zamanda, maliyyə resurslarını da təmin edir.

Bizim vəsaitimiz ildən-ilə artır. Şəffaflıq bizim üçün ən böyük prioritetdir. Biz həm də ölkə daxilində həllini gözləyən layihələrə, insanların sosial rifahının yaxşılaşmasına və qlobal layihələrə - "Şahdəniz-2", TANAP, TAP kimi layihələrə öz vəsaitimizi sərf edirik.

Bu layihələr Azərbaycanın gücünü daha da artıracaqdır. Çünki bu gün Azərbaycan, əlbəttə ki, sürətlə inkişaf edən ölkədir. Ancaq "Şahdəniz-2" layihəsi bundan sonra uzunmüddətli dayanıqlı inkişafımızı təmin edəcəkdir.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanmış təbrik məktubları oxunmuşdur.

Sonda Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış olmuşdur.

İsveçrə ilə Azərbaycan arasında etibarlı tərəfdaşlıq mühiti yaradılır

İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalter iyunun 2-də Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər çərçivəsində keçirilən görüşlərdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunmuş, qarşılıqlı görüşlərin və səfərlərin əhəmiyyəti qeyd edilmişdir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və qarşılıqlı investisiya qoyuluşunun daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilmiş, bu səfərin ikitərəfli münasibətlərin genişlənməsi baxımından əhəmiyyəti vurğulanmışdır.

Valyuta ehtiyatlarımız 51,7 milyard dolları ötüb

İyun ayının 1-nə olan məlumata görə, Azərbaycan Mərkəzi Bankında rəsmi valyuta ehtiyatları 15 milyard 91 milyon 300 min dollara çatmışdır.

Mərkəzi Bankın məlumatına görə, ilin əvvəlindən rəsmi valyuta ehtiyatları 939,3 milyon dollar və ya 6,6% artmışdır. Müqayisə üçün bildirək ki, ötən ilin 5 ayı ərzində rəsmi valyuta ehtiytları 877,5 milyon manat və ya 7% artmışdı.

2014-cü il aprelin 1-ə Dövlət Neft Fondunun aktivləri 36 milyard 618 milyon 400 min ABŞ dollarına bərabər olmuşdur. Dövlət Neft Fondunun vəsaitləri və Mərkəzi Bankdakı rəsmi valyuta ehtiyatları birgə hesablandıqda Azərbaycanın 51 milyard 709 milyon 700 min manat strateji valyuta ehtiyatları olduğu məlum olur.

Özəl pensiya fondları üçün qanunverici baza 2015-ci ilin sonuna qədər yaradılacaq

Azərbaycanda qeyri-dövlət pensiya fondları üçün qanunverici baza 2015-ci ilin sonuna qədər yaradılacaq. Trend-in məlumatına görə, bu barədə cümə axşamı ölkənin Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev Fonda pensiya-sığorta sistemində yığım komponentinin tətbiqi və qeyri-dövlət pensiya institutlarının fəaliyyəti üçün normativ-hüquqi bazanın yaradılmasına dəstək göstərilməsi üzrə Aİ-nin tvininq layihəsinin təqdimatında deyib.

Onun sözlərinə görə, bu fondların fəaliyyəti DSMF-nin funksiyaları ilə kəsişməyəcək: "Mən mütəmadi olaraq qeyri-dövlət pensiya institutlarının Dövlət Fondu ilə rəqabət aparacağı barədə səslənən fikirlərlə razı deyiləm. DSMF icbari sosial sığorta sistemi ilə çalışan dövlət strukturudur. Qeyri-dövlət pensiya fondları isə könüllü əsasda vətəndaşların ödəmələrini qəbul edəcək və faktiki olaraq sosial müdafiənin əlavə mexanizmlərini təklif edəcək".

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

İstehlakçı etibarının qazanılması: halal məhsullar istehsalı və satışı

Halal sertifikatlaşdırma sahibkara nə verir?

(əvvəli qəzetimizin 20-ci sayında)

2012-ci ildə İslam Konfransı Təşkilatının qəbul etdiyi "halal" standartı əsasında Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi milli "AZS 372-2012", "AZS 386-2012" və "AZS 731-2012" standartlarını qəbul etdi. Bu standartlar 2012-ci il avqustun 1-də qüvvəyə mindi və ət məhsullarının istehsalı, daşınması, saxlanması və satışına olan tələbləri sərtləşdirdi. İki ilə yaxın müddət ərzində bu dövlət strukturu ərzaq məhsullarının şəriət qanunlarının tələblərinə uyğunluğunu yoxlamaq üçün artıq təsdiq edilmiş standartlar üzrə texniki komitə yaratdı. Bundan əlavə, şəriətə görə bu prosesdə mütəxəssislərin iştirakına da icazə verildi.

Mətbuatda yerli ət məhsullarının qeyri-qanuni "halal" markası ilə brendləşdirilməsi cəhdlərindən dəfələrlə məlumatlar dərc olunmuşdur. Bunun dindar istehlakçıların etibarından sui-istifadədən başqa bir şey olmadığına baxmayaraq, belə istehsalçıların sayı azalmamışdır. Belə ki, onlardan bir neçəsi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin "qara siyahısı"na düşmüşdür. Dindarların hissləri ilə "alver" hallarının artması ilə əlaqədar olaraq bu ilin əvvəlində istehlakçı hüquqlarının müdafiəsi və qeyri-sağlam rəqabəti aradan qaldırmaq üçün Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi daxili bazarda "halal" sözündən istifadəyə tələbləri sərtləşdirmişdir. İndi kolbasa və ya sosiskalara müvafiq etiketi yapışdırarkən, hər istehsalçı «AZS 757-2014» - "Halal məhsulun sertifikatlaşdırılması qaydaları" standartının tələblərini nəzərə almalı olacaq.

Ölkəmizdə halal markası altında buraxılan, lakin qəbul edilmiş standartlara uyğun olmayan malların ticarət dövriyyəsindən çıxarılması prosesinə başlanmışdır. Ticarət şəbəkələrinin yoxlanması və onlara nəzarət Texniki tənzimləmə və standartlar xidməti tərəfindən həyata keçirilir. İstehlakçıların məhsul seçimini yüngülləşdirmək məqsədilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi sertifikatlaşdırılmış ərzaq məhsullarının markalanmasında istifadə olunacaq yeni "Halal" əmtəə nişanını təsdiq etmişdir.

Sertifikatlaşdırma prosesi, o cümlədən Azərbaycan istehsalçılarının Hindistan, Almaniya, Avstriya, Çexiya və Rusiyadakı xarici podratçılar tərəfindən ət məhsullarının saxlanma qaydalarının və hazırlanmasının öyrənilməsi hesabına sertifikatlaşdırılması davam etmişdir. Bütün istehsal tsikli, mal-qaranın kəsilməsi, ətin saxlanması, onun emalı, markalanması, qablaşdırılması və daşınmasının ciddi analizindən ibarət olan bu iş dövlət komitəsinin "AzSert" mərkəzinə həvalə edilmişdir. Hazırda məhsullarının "halal" standartına uyğunluğuna iddia edən şirkətlərin sayı 10-dan artıq deyildir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin son məlumatlarından

birində beş Azərbaycan istehsalçısına "halal" sertifikatının verilməsinin rədd edildiyi bildirilir. Komitə nümayəndələrinin fikrincə, bu heç də o demək deyil ki, yaxın gələcəkdə onlar yenidən bu sertifikatı almaq üçün müraciət edə bilməz. Bəzi şirkətlərə, məsələn, "Orxan-SS", "Ovçular", "Qafqaz", "Avrora" və "Siyəzən Broyler"ə sertifikatlaşdırma prosesinin gedişində aşkar edilmiş nöqsanları aradan qaldırmaq göstərişi verilmişdir. Bu nöqsanlar aradan qaldırıldıqdan sonra onlar yenidən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə müraciət edə bilərlər.

İSO sertifikatı almaq üçün sahibkarlar hansı şərtlərə əməl etməlidirlər?

Sahibkar, ilk növbədə qida təhlükəsizliyi - İSO 22000 sistemi qurmalıdır. İslamda buna təyyiblik (insan orqanizminə zərər yetirilməməsi) deyirlər. Bu sistemin qurulması üç aydan tez başa gəlmir. İkinci növbədə, halal qida qatqılarının araşdırılması və müştəridə halal kritik kontrol nöqtələrinin müəyyən edilməsi lazımdır. Bütün bunlar həyata keçirildikdən sonra sertifikat almaq üçün müştəri müvafiq sertifikatlaşdırma təşkilatına müraciət etməlidir.

Bəs, müəssisələr üçün bunun faydası nədən ibarətdir?

Ölkəmizdə əhalinin böyük hissəsini müsəlmanlar təşkil etdiyinə görə, bilavasitə bu müəssisələrin satış həcmi artacaqdır. Bundan əlavə, digər müsəlman ölkələrinə məhsul ixracı imkanları genişlənəcək və bu da öz növbəsində onlara əlavə gəlir gəlməsinə səbəb olacaq.

İslam dininə etiqad edən hər kəs üçün "halal" ona yaxın olan müsəlman ənənələri çərçivəsində məhsula etibar və keyfiyyət nişanıdır. İlahiyyatçılar da, istehsalçılar da, istehlakçılar da bu fikirdədir. 2005-ci ildə fəaliyyətə başlayan "Sab" ticarət markasının "Zəhmət-Ruzi" QSC-nin nümayəndəsinin də mövqeyi belədir. Həmin il istehsalçı halal məhsul buraxılışı üçün xeyir-duanı Qafqaz Müsəlmanları İdarəsindən almışdı. "Sab"ın direktor müavini E.Abdullayevin dediyinə görə, "halal" standartı üzrə yeni tələblərin tətbiqi "Zəhmət-Ruzi" şirkətində istehsal texnologiyalarını dəyişməyəcək. Lakin onun sözlərinə görə, bütün qalan şirkətlər qarışıq istehsaldan istifadə edir, yəni şəriət qanunları tərəfindən "icazə verilmiş" eyni istehsal xətlərində paralel olaraq donuz əti qatılmaqla ərzaq malları istehsal edilir. Dini etiqad və Vicdan Azadlığının Müdafiəsi Mərkəzinin (DEVAMM) sədri İ.İbrahimoğlu da, həmçinin "halal" dövlət standartlarının tətbiqini şərh etmişdir. İlahiyyatçı hesab edir ki, "halal" məhsullarının istehsalı çox zəhmət tələb edən proses olduğundan, şəriət qanunlarının incəliklərini bilməyən istehsalçılar üçün bunu öz müəssisələrində təşkil etmək mürəkkəb işdir. Onun fikrincə, standartların tətbiqini Azərbaycanı "yalançı halal" məhsullardan xilas edəcək çarə hesab etmək düzgün deyil. İ.İbrahimoğlu qeyd etmişdir ki, bu məsələdə qaydaqanun yaradılması üçün təşəbbüs təqdirəlayiqdir. O, maarifləndirici xarakterli tədbirlər tərəfdarı olaraq, sərt dövlət tənzimlənməsini şəriət qanunlarına uyğun sağlam qidanın təbliği ilə birgə həyata keçirməyi təklif etmişdir.

Ölkədə yeni "halal" standartlarının meydana gəlməsini alqışlayan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov ilk növbədə qeyd edir ki, sertifikatlaşdırmadan yalnız dövlət büdcəsi dolacaq. Onun sözlərinə görə, əvvəllər müvafiq ayırmalar müstəsna olaraq Qafqaz Müsəlmanları İdarəsinin xeyrinə həyata keçirilirdi. Bundan başqa, Azad İstehlakçılar Birliyində hesab edirlər ki, yeni standartlar bazarı "yalançı halal" məhsullarından təmizləməyə kömək edəcək.

Yəqin ki, "halal" standartlarına uyğun yeni sertifikatların alınması üzrə öhdəliklər istehsalçıları seçim: kəmərləri sıxmaq, ya da qiymətləri qaldırmaq qarşısında qoyacaq. Texnologiyanın yenidən qurulması, xammal tədarükçülərinin dəyişməsi, halal məhsulların ayrıca yerlərdə saxlanması və daşınması, təbii ki, baha başa gələn proseslərdir. Azad İstehlakçılar Birliyinin qiymətləndirmələrinə görə, əsl "halal" standartlı məhsul əvvəlki məhsuldan 15-20% baha olmalıdır.

Bu il aprel ayının sonunda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi məhsulları "halal" standartlarına uyğun tanınan ilk istehsalçıların adlarını açıqlamışdır. Onların arasında "Kral" və "Yeni dad" markaları ilə tanınan "Hakan Foods FF Co. LTD", "Min bərəkət – halal nemət" kolbasa və

sosiskaları istehsal edən "Səhliyalı" kiçik müəssisəsi, "Hacı Turqay" markalı "M.T. Ltd", həmçinin "Zəhmət-Ruzi" QSC-ni göstərmək olar.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri R.Həsənovun sözlərinə görə, dövlətin tətbiq etdiyi standartlar bazarın bütün iştirakçıları üçün təmiz oyun olacaq. Standartların şərtlərinə görə, heyvanlar kəsilərkən surə və dualar oxunacaqdır. Belə ki, komitə heyvanların kəsilməsi zamanı Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrinin iştirakına etiraz etmir.

İSO sertifikatlaşdırmasının aktuallığı

İSO serifikatlaşdırmasının aktuallığı onunla bağlıdır ki, hazırda istehlakçılar mal və ya xidmətin qiymətinə deyil, keyfiyyətinə daha çox diqqət ayırırlar. Könüllü sertifikatlaşdırma qaydası praktiki olaraq icbari sertifikatlaşdırma ilə eynidir, lakin sertifikatlaşdırmanın bu növündə təşkilatlar malın standartlarını sərbəst olaraq müəyyən etmək hüququna malikdir.

İSO standartları üzrə sertifikatlaşdırma məcburi deyil. Lakin təşkilatların İSO beynəlxalq standartlarına uyğunluğu üzrə könüllü sertifikatlaşdırmanın olması təşkilata beynəlxalq bazara çıxış imkanı, beynəlxalq iqtisadi və elmi-texniki əməkdaşlıq imkanı verir və bu, müəssisənin nüfuzuna və rəqabətqabiliyyətliliyinə birbaşa sübutdur.

Aprel ayında müsahibələrindən birində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov bildirmişdir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə "Halal qida. Ümumi tələblər" dövlət standartı ilə bağlı şəxsən mənimlə danışıqlar aparır.

Qeyd edək ki, aprelin 17-də QMİ Qazılar Şurasının iclasında halallıq zəmanətinin verilməsi ilə əlaqədar QMİ nəzdində din xadimlərindən ibarət xüsusi komissiya yaradılıb. Komissiyanın üzvü Hacı Şahin Həsənli mətbuat nümayəndələrinə bildirmişdir ki, Qazılar Şurasının iclasında Şeyxülislam Allahşükür Paşazadə Standartlaşdırma, Metrologiya və Patent Komitəsi ilə şəxsən özü danışıqlar apardığını açıqlayıb: "Məqsəd də odur ki, Dövlət Komitəsinə "Halal qida. Ümumi tələblər" dövlət standartlarına uyğun sertifikat almaq üçün müraciət edən şirkətlərə bu sertifikat QMİ-nin komissiyasının rəyi nəzərə alınaraq verilsin". Standartlaşdırma, Metrologiya və Patent Komitəsinin rəhbəri R.Həsənov qeyd edib ki, Azərbaycanda ət kəsimi varsa, bu zaman İslam dininin qaydalarına riayət edilib-edilmədiyini Dövlət Komitəsi müəyyənləşdirə bilməz: "Buna görə də Azərbaycanda ət kəsimi zamanı müsəlman qaydalarına riayət edilib-edilmədiyi ilə bağlı prosesə nəzarəti Qafqaz Müsəlmanları İdarəsi həyata keçirəcək, bununla bağlı rəy verəcək. Qalan istehsal prosesi, tutaq ki, kolbasa istehsalı tək ət kəsimi ilə məhdudlaşmır. Ona görə də qalan proses bizimlə bağlıdır, dövlətin halal məhsul istehsalı ilə bağlı standartı var, müəyyən tələblər qoyulub. Biz dövlətin tələblərinə riayət olunmasına nəzarət edəcəyik".

Hazırda ət və ət məhsulları istehsalı zamanı ətindən istifadə edilən heyvanların kəsimi Azərbaycanda yox, xarici ölkələrdə aparılır və Dövlət Komitəsi də həmin xarici ölkələrin müsəlman idarələri tərəfindən verilən rəyləri əsas götürür. Bundan sonra isə kolbasa və digər ət məhsullarının istehsalı prosesində Azərbaycanda yerli kəsimdən istifadə edən şirkətlər məhsullarına "Halal qida. Ümumi tələblər" dövlət standartlarına uyğun sertifikat almaq istəyəcəklərsə, bu zaman Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində akkreditasiya olunmuş sertifikatlaşdırma orqanına (AzSert) QMİ-nin də rəyini təqdim etməli olacaqlar.

Bazar iqtisadiyyatı şəraitində yalnız rəqabətə davamlı məhsul buraxan müəssisə irəliləyə bilər.

Hazırda İSO sertifikatı ilə maraqlanan şirkətlərin sayı artmaqdadır, bu da sifarişçinin bunda maraqlı olması ilə izah olunur: deməli, o artıq alınan məhsul və ya xidmətin keyfiyyətinə diqqət edir.

Halal sertifikatlaşdırma, qida təhlükəsizliyinin idarə edilməsinin sertifikatlaşdırılması, əslində ticarət dövriyyəsinin asanlaşmasına, müştərilərin etibarlı və keyfiyyətli məhsullarla təmin edilməsinə xidmət etməlidir.

Yeganə MƏMMƏDOVA

Vergilər naziri Göyçayda vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər. Növbəti belə qəbul may ayının 30-da vergilər naziri Fazil Məmmədov tərəfindən Göyçay şəhərindəki 9 saylı Ərazi Vergilər İdarəsində Göyçay, Ağdaş, Ucar və Kürdəmir rayonlarından olan vətəndaşlar üçün keçirilmişdir. Vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı 40-dan çox vətəndaş vergilər nazirinə müraciət etmişdir.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

Zaqatala, Balakən və Qaxda vergi dostları ilə görüş keçirilmişdir

İyun ayının 4-5-də Azərbaycan Respublikasında vergi siyasəti, onun əsas istiqamətləri, vergi ödəyicilərinə göstərilən xidmətlər, "Vergi dostları" layihəsi ilə əlaqədar 13 saylı Ərazi Vergilər İdarəsi və layihə iştirakçıları tərəfindən görülmüş işlər, problem və nəticələr mövzusunda Zaqatala, Balakən və Qax rayonlarında dəyirmi masa keçirilmişdir.

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov tədbiri açaraq Azərbaycanda 2013-2020-ci illərdə vergi siyasətinin əsas istiqamətləri, ölkəmizin vergi sisteminin real vəziyyəti və onun perspektiv inkişaf təmayülləri haqqında dəyirmi masa iştirakçılarına ətraflı məlumat vermişdir.

Qeyd edilmişdir ki, Vergilər Nazirliyi vergilərə dair problemlərinin açıq dialoq şəraitində müzakirəsi üçün geniş imkanlar yaradır və bu yeni platforma olduqca səmərəli nəticələr verir. Məqsəd milli vergi sisteminin dünya standartlarına uyğunlaşdırılması və ən müasir texnoloji əsaslarda inkişaf etdirilməsi ilə bağlı vergi ödəyiciləri və vergi orqanı əməkdaşlarının iştirakı ilə qarşılıqlı etimad şəraitində müzakirələrin aparılması, könüllü əməletmə səviyyəsinin artırılmasıdır. Bu işlərin, xüsusən vergi orqanlarının və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzlərindən kənarda olan kənd və qəsəbələrdə daha da gücləndirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən 2012-ci ildən etibarən «Vergi dostları» layihəsinin tətbiqinə başlanılmışdır.

Qeyd olunmuşdur ki, indiyədək respublikanın 53 rayonu üzrə 1541 nəfər müəllimə müvafiq təlim keçilmiş və "vergi dostu" sertifikatı təqdim olunmuşdur. "Vergi dostu" olan şəxs yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirir, vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandırır, uşaq və gənclərə vergilərin əhəmiyyətini izah edir, vergilərə dair metodiki kabinetlərdə təşkil olunan görüş və treninqlərdə iştirak edir və s. "Vergi dostu" öhdəliyin vacibliyi barədə danışmışdır. Qeyd olunmuşdur ki, "Vergi dostu" seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, eləcə də gördükləri işlər barədə operativ məlumat vermək imkanlarının genişləndirilməsi, bu sahədə təcrübələrini bölüşmələri məqsədilə Facebook sosial şəbəkəsində "Vergi Dostları" qrupu yaradılmışdır. Hal-hazırda qrupun 900-dən artıq üzvü vardır. Yerli vergi orqanlarının "vergi dostları" ilə keçirdikləri tədbirlərin rəsmiləşdirilməsi məqsədilə AVİS-in Xidmət altsistemində "Keçirilən tədbirlər" bölməsinə" Vergi dostları ilə keçirilən görüşlər" filtri əlavə edilmişdir.

"Vergi dost"ları kimi seçilmiş müəllimlər ötən müddət ərzində görülən işlər və layihə çərçivəsində keçirdikləri tədbirlər, məlumatlandırma formaları barədə məlumat vermişlər. Bu tədbirlərə vergilərlə bağlı məsələlərin tərtibi, şagirdlərin bələdiyyə nümayəndələrindən müsahibə götürülməsi və s. misal ola bilər. "Vergi dostu" seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, nəzarətin təşkili məqsədilə 50 metodist müəyyən edilmişdir.

Layihə çərçivəsində Vergilər Nazirliyinin nümayəndələri Zaqatala rayonunun Car kəndini, Balakən rayonunun Hənifə kəndini və Qax rayonunun İlisu kəndini təmsil edən vergi dostlarının təşkil etdiyi "açıq dərsdə" iştirak etmiş, onlara öz tövsiyələrini vermişlər.

Vergi orqanlarında işə qəbul üzrə test imtahanları keçirilmişdir

İyunun 3-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası vergi orqanlarına işə qəbul olunmaq istəyən namizədlər üçün test imtahanı keçirmişdir. İmtahanda iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 2303 nəfərin 1931-nin sənədləri qəbul olunmuş, imtahanda 1390 nəfər iştirak etmişdir.

Test imtahanında uğur qazanmış 76 nəfər növbəti mərhələdə müsabiqə komissiyası tərəfindən müsahibədən keçməlidirlər. Bu mərhələdən də uğurla keçən namizədlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər.

Müsahibənin dəqiq vaxtı və nəticələri barədə Vergilər Nazirliyinin rəsmi internet saytında (www.taxes.gov.az) və kütləvi informasiya vasitələrində məlumat veriləcəkdir.

Qeyd edək ki, dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin «Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Torpaq vergisi ödəyiciləri məlumatlandırılır

2014-cü il üçün torpaq vergisi bəyannamələrinin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin müəyyən edilmiş müddətə - mayın 15-dək ödənilməsini təmin etmək məqsədilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (www.taxes.gov.az) və 195 Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinin sualları cavablandırılmış, vergi bəyannamələrinin vaxtında təqdim edilməsi məqsədilə 6035 vergi ödəyicisinin telefon nömrələrinə məlumatlandırıcı mesajlar göndərilmişdir.

2014-cü il üçün təqdim edilməli 9953 torpaq vergisi bəyannaməsindən 9246-sı və ya 92,9%-i vaxtında, onların da 8728-i və ya 94,4%-i elektron qaydada təqdim edilmişdir.

Operativ nəzarət tədbirləri haqqında

2014-cü ilin may ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 5543 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 2482 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 1166 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 932 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edimişdir.

Operativ nəzarət tədbirləri zamanı 398 vergi ödəyicisi tərəfindən 576 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 216 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 85 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 2493 ədəd mal olduğu aşkarlanmışdır.

Aşkar edilmiş faktlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

Duru yağ bazarında pambıq çıyidi yağı xəbərdarlığı

Sovet vaxtı pambıq çıyidindən çəkilmiş yağlar bu gün əhaliyə satılır.

Bunu keçirdiyi mətbuat konfransında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.

O deyib ki, istehlakçılar tərəfindən Birliyə yağlar ilə bağlı hər gün şikayətlər daxil olur:

"Əsasən şikayətlər təhlükəli duru yağların satılması ilə bağlıdır. İstehlakçılar saxta yağları bizə təqdim ediblər. Həmin yağların pambıq çıyidinin yağı olduğunu müəyyən etmişik. Sovet dövründə Gəncədə pambıq çıyidindən yağın alınması ilə məşğul olan zavod olmuşdur. Həmin zavod demək olar ki, dağıdılıbdır. Lakin içərisində tonlarla çıyid yağı olan çənlər qalıb. Həmin çənlərdən yağlar müxtəlif üsullar ilə götürülərək satışa verilir".

Eyyub Hüseynov qeyd etdi ki, çıyid yağları Gəncə şəhəri ilə bərabər Şirvan şəhərindən də satışa verilir.

"Ölkəmizdə bir neçə yerdə bu cür yağ email zavodu olmuşdur, o cümlədən Şirvan şəhərində. Həmin zavodun çənlərinin yağ ilə dolu, yoxsa boş olması barədə hələlik məlumatımız yoxdur. Müəyyən etmişik ki, Şirvan şəhəri Hacı Qəhramanlı qəsəbəsində yerləşən Pambıq zavodu təhlükəli yağın satışı ilə məşğul olur".

AİB-nin sədri qeyd etdi ki, təhlükəli yağlar əsasən həmin şəhərlərdə və ətraf rayonlarda plastik qablara etiketləşdirilmədən doldurularaq xlor satışına bənzər üsulla əhaliyə və sexlərə satılır.

"Əksər hallarda təhlükəli yağlar çörək, qənnadı sexlərinə, heyvan yemlərinə qatmaq üçün yem istehsalı müəssisələrinə verilir. Bundan başqa, bəzi küçələrdə satılan peraşkilər də bu yağlar ilə bişirilir".

Eyyub Hüseynov yağın ucuz olması üçün təhlükəli yağların digər brend yağlar ilə qarışdırıldığını da qeyd etdi.

"Yenicə aldığımız məlumata görə, Yunanıstan istehsalı olan "Agrotiki" və "Pyphnelaio" yağlarının ölkəmizdə saxtası istehsal olunur. Zeytun yağları ucuz başa gəlsin deyə çıyid yağı ilə qarışdırılaraq Yunanıstan brendlərinin adı ilə satışa verilir".

Eyyub Hüseynov əlavə etdi ki, təhlükəli yağların əhaliyə satılması ciddi xəstəliklərin əmələ gəlməsinə rəvac verir.

VTB (Azərbaycan) yüksək ROE əmsalı nümayiş etdirmişdir

Bank VTB (Azərbaycan) 2013-cü ilin yekununda şəxsi kapitalın rentabelliyi (ROE) üzrə yüksək göstərici nümayiş etdirmişdir.

Bu barədə Rusiyanın Bank VTB ASC-nin böyük vitse-prezidenti, Törəmə şirkətlər üzrə departamentin rəhbəri Mixail Yakunin "RİA Novosti" agentliyinə müsahibəsində bildirmişdir.

2013-cü il üzrə xarici şəbəkənin ROE əmsalının 13,8% olduğunu qeyd edən Mixail Yakunin demişdir: "Beləliklə, biz 2011-2013-cü illər üzrə müəyyənləşdirilmiş strategiyada 15% məqsədə, demək olar ki, çatmışıq".

VTB-nin böyük vitse-prezidenti qeyd etmişdir ki, 2013-cü ildə və 2014-cü ilin əvvəlində VTB-nin Azərbaycanda olan "törəmə"si 1,1 milyard rubl məbləğində əlavə kapitallaşdırılmışdır. Müvafiq dövr üzrə törəmə bankların əlavə kapitallaşmasının ümumi məbləği 3 milyard rubl həcmində olmuşdur. "Gələcəkdə biz ROE-si 15 %-dən yüksək olan bankların əlavə kapitallaşdırlmasını nəzərdə tutmuşuq", - deyə Mixail Yakunun əlavə etmişdir.

Bankın top-menecerinin sözlərinə görə, yeni strategiya üzrə, VTB-nin xaricdə olan törəmə banklarının hər birinin qarşısında 2016-cı ilədək ROE üzrə 15%-dən artıq göstəriciyə çatmaq məqsədi qoyulmuşdu. Bu zaman məcmu ROE 20% olmalıdır. Həmçinin, törəmə bankların VTB Qrupun miqyasında məcmu gəliri 10-12%-ə çatmalıdır. Habelə, əməliyyat effektivliyinin artırılması, biznes proseslərin optimallaşdırılması və CIR-in azaldılması da nəzərdə tutulmuşdu.

Mixail Yakunin nəzərə çatdırmışdır ki, Azərbaycanda olan bank VTB investisiyalaşma mərhələsindədir və bankın pərakəndə şəbəkəsinin genişləndirilməsi planlaşdırılır.

Dövriyyədə olan pul kütləsinin 48,6%-i nağdsız vəsaitlərdir

01.04.2014-cü il tarixinə Azərbaycanda dövriyyədə olan geniş pul kütləsi (M3) ötən ilin müvafiq dövrünə nəzərən 15%, ilin əvvəlinə nəzərən isə 0,09% artaraq 19 milyard 377 milyon manata çatmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, ilin əvvəlindən dövriyyədə olan nağd pul kütləsi 505,2 milyon manat azalaraq 10 milyard 458 milyon 700 min manatdan 9 milyard 953 milyon 600 min manata düşümşdür.

NAĞDSIZ PUL KÜTLƏSİ 522 MİLYON MANAT ARTIB

Birinci rübdə dövriyyədə nağdsız pul vəsaitlərinin həcmi isə 522,3 milyon manat və ya 5,5% artaraq 9 milyard 423 milyon 400 min manata çatmışdır.

Birinci rübdə dövriyyədə olan nağdsız pul vəsaitlərinin həcminin 522,3 milyon manat artmasına baxmayaraq, nağd pul kütləsinin 505,2 milyon manat azalması dövriyyədə olan geniş pul kütləsinin (M3) cəmi 17,2 milyon manat artmasına səbəb olmuşdur.

01.04.2014-cü il tarixinə nağdsız pul kütləsinin geniş pul kütləsində xüsusi çəkisi 48,6%-ə bərabər olmuşdur. Son iki il üç ayda bu göstərici, demək olar ki, dəyişməmişdir. Belə ki, 01.01.2012-ci il tarixində dövriyyədə olmuş 13 milyard 903 milyon 200 min manat geniş pul kütləsinin 6 milyard 745 milyon manatı və ya 48,5%-i nağdsız vəsaitlər olmuşdu. Ötən 51 ay ərzində dövriyyədə olan nağdsız pul kütləsinin həcmi 2 milyard 678 milyon 400 min manat, nağd vəsaitlər isə 2 milyard 795 milyon 400 min manat artmışdır.

Qeyd edək ki, pul kütləsi dövriyyədə olan nağd və qeyri-nağd ödəniş vasitələrinin məcmusudur. Azərbaycan praktikasında pul kütləsinin 3 növü fərqləndirilir: a) dar mənada pul kütləsi (M1), b) manatla geniş mənada pul kütləsi (M2), c) geniş mənada pul kütləsi (M3).

Azərbaycanda M0, M1, M2 və M3 aqreqatlarından istifadə olunur: M0 = ödəniş vəsaiti kimi ani istifadə olunan pul kütləsinin ən likvid hissəsi, dövriyyədə olan banknot və sikkələrdir. M1 = M0 + tələb olunanadək əmanət və depozitlər; M2 = M1 + müddətli əmanət və depozitlər; M3 = M2 + sərbəst dönərli valyutada əmanət və depozitlərdir.

Pul bazası - pul kütləsinin Mərkəzi Bank tərəfindən qısa müddət ərzində dəyişdirilə bilən hissəsi nəzərdə tutulur. Pul bazasının tərkibinə dövriyyədə olan nağd pul və bank ehtiyatları (kommersiya banklarının Mərkəzi Bankdakı müxbir hesablarının qalıqları) daxildir.

Pul multiplikatoru - iqtisadiyyatın, xüsusilə də bank sisteminin pul yaratmaq qabiliyyətini xarakterizə edir və geniş mənada pul kütləsinin (M2) manatla pul bazasına nisbəti kimi hesablanır.

Nağdsız pul kütləsi geniş pul kütləsindən (M3) nağd pulun (M0) çıxılması ilə müəyyən olunur.

Muğanbankın daha 3 filialı fəaliyyətə başladı

Muğanbankın Şəmkir, Salyan və Xaçmaz şəhərlərində yeni filialları fəaliyyətə başlamışdır.

"Bank regionlarda filial şəbəkəsini artıraraq orada yaşayan əhalinin müxtəlif bank xidmətlərindən yararlanmasına şərait yaradır", - məlumatda qeyd olunur.

Yeni açılmış Şəmkir, Salyan və Xaçmaz filiallarında fiziki və hüquqi şəxslərə hesab açılması, depozitlərin qəbulu, kreditlərin rəsmiləşdirilməsi, bank kartlarının sifarişi, hasablaşma-kassa əməliyyatları, təcili pul köçürmələri və s. kimi bank xidmətləri təqdim olunur.

Yeni filiallar müvafiq olaraq Şəmkir şəhəri, Səməd Vurğun küçəsi 179, Salyan şəhəri, Heydər Əliyev prospekti 109 və Xaçmaz şəhəri, Nəriman Nərimanov küçəsində fəaliyyət göstərir.

Bankın xidmət şəbəkəsinin inkişaf konsepsiyasına uyğun olaraq, daha bir neçə regionda filial və şöbələrin açılması planlaşdırılır.

Технологическое развитие и маркетинг

д. э. н., профессор Кафаров А.А. Институт Экономики НАНА

д.ф.э., доцент Солтанлы И.Г. Институт Экономики НАНА

(Начало в предыдущем номере)

Внедрение технологий не всегда сопровождается одинаковыми или одинаково высокими рисками. Степень новизны и сложность технологий в существенной мере отражается на уровне рискованности ситуации. Риск при внедрении технологий состоит в неопределенности того, что фирма со своими новыми техническими разработками: своевременно выйдет на новый технологический уровень и рынок; внедрит технологии, которые будут восприняты рынком; выдержит заданный конкурентами темп внедрения инноваций; окажется способной развить определенное технологическое преимущество и привлечь к себе внимание потребителей; сможет вызвать уверенность потребителя в том, что технологические инновации приведут к дополнительным преимуществам товара.

Сложность поставленных задач влияет на управленческие решения, связанные с внедрением технологии. Обычно исходят из понимания того, что чем сложнее поставленная задача, тем труднее найти для нее приемлемое решение. Из-за этого объем средств на проведение НИОКР невозможно оценить точно заранее. Вероятность отклонения от заданной цели увеличивается по мере возрастания сложности проблемы. Примером может служить разработка компьютерных технологий, реализуемых на базе оптоволокна. В подобных случаях между предприятиями часто заключаются стратегические альянсы. Это упрощает финансирование ресурсоемких технологических разработок. Кроме того, возможно объединение имеющихся у этих предприятий ноу-хау, разделение рисков и параллельная разработка различных технологий.

Различают технологические и экономические риски. Их четкое разделение возможно не всегда, однако оно позволяет учесть влияние разных факторов. Технологический риск связан с потенциалом внедряемой технологии, а экономический риск – с неопределенностью ее сбыта.

При внедрении новых технологий заранее определить то, каким будет уровень технических характеристик продукта, невозможно. При этом технологический риск, включает в себя неопределенность по отношению к масштабу производственной деятельности, которая зависит от специфики внедряемой технологии. Неопределенность возникает вследствие того, что процесс технологического развития предприятия невозможно прогнозировать в полной мере.

Еще одна неопределенность связана с потенциалом дальнейшего совершенствования технологии. На ранних стадиях ее развития трудно оценить то, для каких отраслей и групп потребителей и пр. эта технология будет иметь рыночную перспективу. Неопределенность развития технологии может быть охарактеризована тем, что руководству предприятия известны только вероятностные оценки потенциала технологии и возникновения новых конкурирующих технологий. Кроме того, на ранних стадиях развития рынка, существует опасность того, что заменяющие технологии, параллельно разрабатываемые конкурентами, займут существенную долю рынка или даже вытеснят разрабатываемую предприятием технологию.

Решающим условием успеха высокотехнологичного предприятия является то, удастся ли с помощью новых технологий разработать конкурентоспособные на рынке товары и/или процессы и в запланированные сроки получить прибыль. Экономический успех определяется с учетом затрат на разработку технологий и новых товаров, их производство и продвижение на рынке.

На этапе формирования рынка неопределенность его дальнейшего развития особенно велика. Границы рынка, как правило, до конца не ясны.Количество потенциальных покупателей оценить также трудно, как и ихповедение. Кроме того, отсутствует информация о восприятии нового технологического решения различными группами потребителей в рассматриваемый период. Существуют критерии успешного восприятия товара потребителем. Выполнение следующих условий помогает осуществить этот процесс быстрее и успешнее:

- при эксплуатации товара от потребителя не требуется кардинальной переоценки имеющегося опыта, привычного покупательского поведения и ценностей;
- сложность продукта или процесса не затрудняет его обслуживание и не вызывает необходимости дополнительных консультаций продавца;
- имеется преимущество по сравнению с другими известными продуктам или процессам и существующими решениями покупательских проблем;
- существует возможность разделения процесса освоения новой технологии на отдельные этапы.

Прогнозирование восприятия потребителями новой технологии затруднительно. При возможных ошибочных оценках, могут возникать перечисленные ниже последствия:

- развитие технологии будет проходить не на том рынке;
- произойдет задержка внедрения перспективных технологических разработок;
- будут несвоевременно выявлены и устранены барьеры восприятия продукта.

Кроме того, вследствие позитивного отношения к новой технологии и созданным на ее основе продуктам объем рынка может быть оценен излишне оптимистично, и расходы на разработку могут не окупиться.

В случае использования новых технологий вполне возможно изменение отношения покупателей к целым группам товаров. Это может вызвать у потребителей совершенно новые требования, которые не принимались во внимание при разработке данной технологии.

Наряду с рисками, которые вызваны поведением потенциальных потребителей, существует опасность проигрыша конкурентам. Такой риск зависит от рыночного поведения конкурентов и накала конкурентной борьбы. Острота конкуренции определяется количеством и масштабом конкурирующих предприятий, их стратегией в конкурентной борьбе.

У предприятия, внедряющего новые технологии, круг потенциальных конкурентов огромен. Он охватывает всех имеющихся на данный момент и потенциальных участников рынка, которые могут предложить подобные или заменяющие технологии. Неопределенность рыночного поведения конкурентов повышается с увеличением количества и масштаба конкурирующих предприятий. Такая неопределенность возрастает, если на рынок приходят конкуренты из других отраслей или стран, поскольку не исключается другая культура поведения таких конкурентов. В этом случае становится особенно трудно предугадать возможные действия конкурентов и правильно оценить их последствия.

Иная технологическая стратегия конкурентов может усилить накал конкурентной борьбы. Если такая стратегия конкурирующих предприятий имеет агрессивный характер и направлен на завоевание господствующего положения на рынке, то, как правило, развивается борьба за вытеснение соперников с рынка. Обострение конкуренции ведет к ценовой войне и многократному наращиванию конкурентного давления на предприятие. Такая война вызывает падение прибыльности всей отрасли. Это отражается на инновационных возможностях предприятий, поскольку низкие цены не позволяют обеспечить возмещение затрат на проведение НИОКР. Рост конкурентного давления приводит к уменьшению длительности инновационного цикла. Закономерным следствием является сокращение жизненного цикла товаров в данной отрасли.

Появление новых продуктов-конкурентов представляет серьезную угрозу для предприятия. В таком случае решающее значение имеют сроки выведения этих продуктов на рынок, а также их функциональные характеристики. Если выход на рынок товаров-конкурентов происходит сразу же после начала продаж собственного нового продукта, то, как правило, сокращается период получения прибыли.

На рынке и в обществе действуют социальные, культурные, экологические, экономические, правовые, политико-административные факторы и др. Так, неопределенность сбыта продукции зависит от тенденций общеэкономического роста, развития конъюнктуры, факторов внешнеэкономической деятельности. Повышенный риск может создавать жесткая политика государства в области научных исследований и развития технологий. В случае разработки новых медицинских препаратов или при использовании в строительстве нетрадиционных облицовочных материалов компании сталкиваются с правовым регулированием отрасли. Оно может выражаться в запрете на продажу определенных продуктов, необходимости получения лицензии, в дополнительном налогообложении.

«AtaInsurance» организовала праздник для детей, оставшимися без попечения родителей

В связи с Международным днем защиты детей (1 июня) сотрудники ОАО «AtaInsurance» посетили расположенный в поселке Шаган Интернат для детей с ограниченными возможностями № 3 и организовали для них праздничное мероприятие. Организаторы мероприятия ознакомились с поделками, изготовленными руками детей с ограниченными возможностями. Затем дети были приглашены за праздничный стол, выступившие с песнями и стихотворениями дети были награждены подарками. После вручения подарков дети вместе с гостями продолжали веселиться на организованном концерте национальной музыки.

Директор Интерната для детей с ограниченными возможностями № 3 Севиндж Меликова поблагодарила ОАО «AtaInsurance» за организацию данного мероприятия, отметила важность проведения подобных мероприятий в дальнейшем, и пожелала всяческих успехов компании в ее дальнейшей деятельности.

Входящее в Группу Компаний “AtaHolding”, ОАО “AtaInsurance” действует на страховом рынке с 2004 года. Компания предоставляет клиентам 22 вида страховых услуг в сфере добровольного страхования и 4 – в сфере обязательного. Является учредителем и участником Бюро Обязательного Страхования. Обслуживающая сеть ОАО “AtaInsurance” имеет 5 филиала и 6 представительств и 6 офисов продаж.

Клиент «АтаБанк»а выиграл путешествие в Бразилию

Стал известен победитель лотереи «Следите за футболом в Бразилии вживую!» организованной «VISA International» и ОАО «АтаБанк».

По результатам лотереи проведенной с 10-го марта по 30-е апреля 2014-го года, обладателем путевки на 2 человека на Чемпионат Мира по Футболу в Бразилии стал клиент ОАО «АтаБанк» Бахтияр Бадалов.

Сделав оплату в 1 манат Бахтияр Бадалов стал победителем лотереи «Следите за футболом в Бразилии вживую!». Следует напомнить, что победитель определялсяслучайным путем.

Наряду с туристическим пакетом и билетами на игру Нигерия-Аргентина от «VISAInternational», Бахтияр Бадалов получил также ценные подарки от ОАО «АтаБанк». Вручение призов состоялось в центральном офисе «АтаБанк»а. В церемонии также приняли участие представитель VISAInternational в Азербайджане Нурлан Гаджиев иСабина Садыгова- директор отдела по работе с клиентами, уполномоченного агентства «VISAInternational» в Азербайджане OptimumMediaAzerbaijan.

Не скрывающий своего волнения и радостной улыбки победитель сказал: «В тот день я был не в настроении. Звонок из «АтаБанк»а известивший меня о моей победе очень обрадовал меня. Хочу поблагодарить всех».

Функционирующий с 1993-го года ОАО «АтаБанк» является одним из самых больших финансовых структур Азербайджана. Сегодня ОАО «АтаБанк» является высокотехнологичным универсальным банком. В настоящее время сеть ОАО «АтаБанк» состоит из 25 филиалов и отделений в Баку и регионах республики. Банк предоставляет полный спектр услуг корпоративным и частным клиентам.

Новейшие технологии поддерживают рост добычи углеводородов в Азербайджане - BP

Азербайджан имеет долгую и славную историю добычи нефти и газа, и не так давно в стране значительно выросло производство углеводородов. Об этом сказал вице-президент по разведке компании "BP Azerbaijan" Грегори Райли в четверг на 21-ой Каспийской международной нефтегазовой конференции в Баку.

По его словам, качественный рост промышленного производства нефти и газа требует вложения больших инвестиций, в том числе в восстановление существующих месторождений и разведку старых.

"Применение новейших технологий в стране позволяет поддерживать растущие объемы промышленного производства углеводородов", - отметил он.

По словам вице-президента "BP Azerbaijan", роль газа в экономике стран мира будет расти и в дальнейшем.

Говоря о добыче на блоке "Шафаг-Асиман" в азербайджанском секторе Каспия, Райли отметил, что "существует большой потенциал для добычи" на указанном блоке.

Контракт по "Шафаг-Асиман" был подписан между SOCAR (Госнефтекомпания Азербайджана) и британской BP в октябре 2010 года сроком на 30 лет. Разведочный период составляет четыре года с возможностью продления еще на три года. На первом этапе планируется бурение двух скважин. При необходимости на втором этапе будут пробурены еще две скважины. С переходом в эксплуатационный период стороны будут осуществлять в рамках проекта совместное операторство. Долевое распределение участия в контракте составляет 50 на 50 процентов.

Прогнозируемые запасы блока "Шафаг-Асиман" составляют 500 миллиардов кубометров газа и 65 миллионов тонн конденсата.

Блок расположен в 125 километрах к юго-востоку от Баку. На блоке ранее не проводились разведочные работы. "Шафаг-Асиман" расположен на глубине моря в 650-800 метров с глубиной резервуара в семь тысяч метров.

«АтаТравел» провело занятие «Планирование эффективной карьеры»

31 мая 2014 года ООО «АтаТравел» провело обучающее занятие «Планирование эффективной карьеры» для воспитанников Детской деревни-SOS. В ходе занятия около 15 подростков из детской деревни получили широкую информацию о планировании карьеры, причинах неудачной карьеры, построения эффективной карьеры. Особенно с большим интересом юные участники мероприятия выслушали рекомендации по выстраиванию успешной карьеры.

Директор ООО «АтаТравел» Вусал Алиев сказал что, компания «АтаТравел» регулярно и активно участвует в проектах в рамках Корпоративной Социальной Ответственности. Целью проведения данного занятия является помощь молодежи в будущем трудоустройстве без проблем. «Мы хотим, чтобы молодежь при трудоустройстве могла, правильно продемонстрировав свои знания и умения получить престижную работу»- отметил он.

Отметим, что туристическое агентство ООО «АтаТравел» учреждено в 2011 году, и входит в Группу Компаний ОАО «АтаХолдинг» одного из известных холдингов Азербайджана, достигшего успехов в различных секторах экономики. «АтаТравел» представляет многочисленные услуги по посещению любой точки мира. Компания оказывает услуги своим клиентам по предварительному бронированию отелей, трансферов, авиабилетов и туров, страхованию и визовой поддержке. Туристическое страхование осуществляет ОАО «АтаСыгорта».

YOXSULLUĞUN VƏ RİFAH HALININ FUNKSİONAL ASILILIQLARININ MİLLİ XÜSUSİYYƏTLƏRİ

ADİU-nun «İqtisadi nəzəriyyə-2» kafedrasının müdiri, i.e.d., prof. M.X.MEYBULLAYEV

(əvvəli ötən sayımızda)

Bir sıra dünya ölkələrinin təcrübəsinə əsaslanaraq yoxsulluqla mübarizənin üstün cəhətlərini qeyd etmək olar. Buraya daxildir:

Birincisi, insan potensialının inkişaf etdirilməsi, səhiyyənin gücləndirilməsi, savadsızlıqla mübarizə, peşə hazırlığının genişlənməsi və digər xidmət sektorlarının inkişafına sərmayənin qoyulması tələb olunur. Həmçinin, ətraf mühitin qorunmasına da kifayət qədər diqqət yetirilməlidir.

İkincisi, kənd rayonlarından şəhərlərə, ələlxüsus da cavanların mühacirət miqyaslarının azaldılması naminə daha geniş işədüzəlmə imkanlarının təminatı üçün kənd rayonlarının infrastrukturunun inkişafında sərmayənin böyük əhəmiyyəti vardır.

Üçüncüsü, yerli materialları və işçi qüvvəsini istifadə edən şəxsi, kustar istehsalat və artellərin yaradılmasına insanların həvəsləndirilməsi arzu edilir. Belə olarsa, faizsiz kredit alınması imkanlarının genişlənməsi böyük dəstək olardı.

Dördüncüsü, hökumətlər diqqəti iqtisadi artım üçün əlverişli olan makroiqtisadi şəraitin yaradılması üzərində cəmləşdirməklə yanaşı, öz ölkələrində gəlirlərin bölgüsündə daha artıq bərabərliyin təmin olunmasına yönəlmiş tədbirlər də görməlidirlər.

İnkişaf etmiş ölkələrdə yoxsulluq probleminin kəskinlik dərəcəsi, şübhəsiz, nə kəmiyyət, nə də keyfiyyət parametrlərinə görə inkişafda olan və keçid iqtisadiyyatlı ölkələrdə əhalinin dərin marginallaşması ilə ölçüyəgəlməzdir. Bu istiqamətdə Almaniya, Fransa, Böyük Britaniya, İrlandiya, Lüksemburq, Danimarka, Hollandiya, Belçika kimi Avropa ölkələrinin, həmçinin, ABŞ və Kanadanın yoxsulluqla mübarizə təcrübəsini nümunə gətirmək kifayətdir. Bu ölkələrdə, bu və ya digər formada, pulsuz və güzəştli tibbi xidmət, peşə hazırlığı və yenidən hazırlıq tətbiq edilir, bələdiyyə mənzillərinin tikintisinə subsidiyalar ayrılır, işsizlikdən daha çox əziyyət çəkən region və peşə sahiblərinə xüsusi iqtisadi yardım tədbirləri görülür, öz şəxsi biznesinin təşkili yolu ilə işsizlərə yardım proqramlarından istifadə olunur, ərzaq talonları verilir və s.

Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişafa dair Dövlət Proqramının, regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının, yoxsulluğun azaldılması və davamlı inkişafa dair Dövlət Proqramının və bir sıra sahələr üzrə proqramların həyata keçirilməsi nəticəsində, yoxsulluq səviyyəsini 1995-ci ildəki 49%-dən 2013-cü ildə 6%-ə qədər azaltmaq mümkün olmuşdur. İş yerlərinin sayının artırılması imkanlarının genişləndirilməsi üçün əlverişli mühitin yaradılması, qeyri-neft sektorunda gəlirlərin artması, makroiqtisadi sabitliyin qorunması, infrastrukturun yaxşılaşdırılması, sosial müdafiədə ünvanlılığın artırılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması kimi strateji vəzifələrin həllində ciddi irəliləyişlərə nail olunmuşdur.

Yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması sahəsində nəzərdə tutulan məqsədlərə nail olmaq üçün dövlət idarəetmə

sisteminin təkmilləşdirilməsi də böyük əhəmiyyət kəsb edir. Son illərdə iqtisadi və sosial sahələrdə əldə edilmiş nəticələr göstərir ki, bu siyasət real pozitiv səmərə verir.

Bunlarla yanaşı, təhlillər göstərir ki, aparılan genişmiqyaslı tədbirlərə baxmayaraq, rifah halının yaxşılaşdırılması və yoxsulluğun azaldılması problemi öz aktuallığını saxlamaqdadır, onun həlli isə iqtisadi və sosial zərurət olmaqda davam edir.

Araşdırmalar göstərir ki, yoxsulluğun əsas səbəbləri sırasında xüsusən kənd yerlərində və kiçik şəhərlərdə məşğul əhalinin gəlirlərinin aşağı olmasını, ailələrin tərkibinin tam olmamasını, uşaqlı ailələrdə işləyənlərin ailə qayğılarının çox olmasını göstərmək olar. Yoxsul ailələrdə 1-2 uşaq olduqda bu ailələr arasında yoxsulların sayı uşaqsız ailələrlə müqayisədə 23% çoxdur. Üç və daha çox uşaq olan tam ailələrin arasında yoxsulların sayı artıq 20% təşkil edir. Yarımçıq ailələrdə vəziyyət daha gərgindir. 3 və daha çox uşaq olan yarımçıq ailələrdə yoxsul təsərrüfatların sayı 30%-ə yaxınlaşır.

Yoxsulluğun subyektiv səbəbləri arasında insan potensialının tərkib hissələri, səhhətin pis olması, ümumi və peşə təhsilinin aşağı səviyyəsi və bunun nəticəsində əmək bazarında rəqabət qabiliyyəti və s. səbəblər ön plana çıxır.

Respublikada əhalinin rifahının artması və yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə ölkə miqyasında əhalinin gəlirlərinin diferensiallaşmasının və digər sosial göstəricilərin variantlı proqnozlarının işlənib hazırlanmasına xüsusi diqqət yetirilməlidir.

Əhalinin gəlirlərinin qütbləşməsi sahəsində müasir vəziyyətin təhlili və qiymətləndirilməsi göstərir ki, respublikada baş verən bazar dəyişikliklərinə uyğun olan və əsas komponentlərindən biri sosial qeyri-bərabərliyin azaldılması, əhalinin sosial müdafiəsi mexanizmləri və vasitələri olan sosial siyasətin fəallaşdırılması zəruridir.

Sosial proqnozlaşdırma ciddi və sistemli formada həyata keçirilməlidir. Məhz ona görə də işdə sosial sahənin müdafiəsi funksiyasını yerinə yetirən göstəricilər: yaşayış minimumu və minimal əmək haqqı, əmək haqqı ilə gəlirlər arasındakı fərq, pensiya təminatı, sağlamlığın qorunması, fasiləsiz təhsil, mənzil–kommunal xidmətlər, sağlam həyat tərzini təmin edən rekreasiya kimi amillərin rolu diqqət mərkəzində saxlanılmalıdır.

Yoxsulluğun azaldılması və rifah halının yaxşılaşdırılmasının hüquqi tənzimlənməsinin perspektivlərinə, onun mexanizm və texnologiyalarının təkmilləşdirilməsinə dair başlıca vəzifələr ardıcıl həyata keçirilməlidir.

Xüsusi olaraq, özünü müstəqil şəkildə maddi cəhətdən təmin etmək iqtidarında olmayan zəif sosial qrupların dövlət tərəfindən daha artıq dərəcədə sosial müdafiə edilməsi zərurəti vacibdir. Həddən çox aşağı olan «yaşayış minimumunun həcmi» normativ göstəricisi vasitəsilə yoxsulluğun qiymətləndirilməsindən imtina olunmalıdır. Çünki o, əhalinin xərcləri strukturunun dəyişməsi meyillərini və cəmiyyətdə normalaşan sosial standartları əks etdirmir. Onun istifadəsi ölkədə yoxsulluqla bağlı həqiqi vəziyyəti təhrif edir. **Milli həyat keyfiyyəti standartı – ailənin həyatı üçün sosial cəhətdən məqbul olan, əhalinin əksəriyyətinə öz ölkəsində layiqli həyat sürməyə imkan verən parametrlər kompleksi, bu parametrlərin normativ göstərici kimi qəbul edilməsi və hakimiyyət orqanlarının işinin bunlara müvafiq qiymətləndirilməsi vacibdir.**

“PAŞA Həyat” beynəlxalq mükafata layiq görülüb

“PAŞA Həyat Sığorta” şirkəti Rumıniyada keçirilən “FIAR 2014 - Beynəlxalq Sığorta və Təkrarsığorta Forumu”nda xüsusi beynəlxalq mükafata layiq görülüb.

Şirkətin İctimaiyyətlə Əlaqələr Xidmətindən verilən məlumata görə, "XPRIMM Insurance Report" beynəlxalq sığorta jurnalı tərəfindən təşkil edilən Forum çərçivəsində “PAŞA Həyat” Azərbaycanda “Ən mənfəətli həyat sığortası şirkəti” nominasiyası üzrə mükafata layiq görülüb.

Mükafatların təqdimetmə mərasimində iştirak edən “PAŞA Həyat Sığorta” şirkətinin İdarə Heyətinin sədr müavini Niyaz İsmayılov öz çıxışında şirkətin əsas fəaliyyət istiqamətləri, maliyyə göstəriciləri və əldə olunan uğur və nailiyyətləri haqda geniş məlumat verib.

N.İsmayılov çıxışının sonunda “PAŞA Həyat Sığorta” şirkətinin belə nüfuzlu nominasiya üzrə beynəlxalq mükafatla təltif edilməsinə görə təşkilatçılara və layihənin bütün iştirakçılarına dərin təşəkkürünü bildirib.

Qeyd edək ki, forum çərçivəsində Şərqi Avropa və MDB ölkələrinin ən yaxşı sığorta, təkrarsığorta və broker şirkətləri, həmçinin ictimai təşkilatlar da mükafatlandırılıb.

Xatırldaq ki, Beynəlxalq Sığorta və Təkrarsığorta Forumu 1998-ci ildən təşkil edilir. Hər il tədbirdə 500-dən çox nümayəndə iştirak edir. Tədbirə Avropanın sığorta, təkrarsığorta, bank, lizinq, konsultant, audit, İT və Kommunikasiya sektoru şirkətlərinin lider və mütəxəssislərindən ibarət iştirakçıları qatılır. Forum hər il bir ölkənin təmsilçiliyi ilə keçirilir. Bu il forumda təmsilçi tərəf Azərbaycan olub.

“Holcim”in Azərbaycanda mənfəəti artıb

2013-cü ildə 324,6 milyon manata tikdirdiyi yeni sobasını istismara vermiş “Holcim (Azərbaycan)” ASC, artan istehsal gücü sayəsində gəlirlərini və mənfəətini də artırıb.

ASC 2013-cü ili 51,6 milyon manat xalis mənfəət ilə başa vurub. 2012-ci illə müqayisədə şirkətin xalis mənfəəti 13,5 milyon manat və ya 35,4% artıb.

Ötən ilin mənfəəti də bölüşdürülməmiş mənfəətin üzərinə əlavə olunub, nəticədə şirkətin bölüşdürülməmiş mənfəəti 279 milyon manatı ötüb.

Ötən il “Holcim (Azərbaycan)”in satışları da artıb. Şirkət 2012-ci illə müqayisədə 19,8 milyon manatlıq daha çox mal sataraq cəmi illik satışlarının həcmini 176,5 milyon manata yüksəldib.

Ötən il “Holcim (Azərbaycan)”in cəmi xərcləri təxminən 125 milyon manat təşkil etmişdir, o cümlədən ASC 13,5 milyon manat mənfəət vergisi ödəmişdir.

İl ərzində “Holcim (Azərbaycan)” ASC-nin aktivləri isə cüzi azalaraq 370,9 milyon manata düşmüşdür.

2013-cü ildə “Holcim (Azərbaycan)” kredit borclarından xeyli qaytarmışdır. Belə ki, ASC təxminən 85,6 milyon manat olmuş uzunmüddətli kredit borclarından 44,2 milyon manatını ödəmişdir.

“Holcim (Azərbaycan)” ASC-nin nizamnamə kapitalı 31 milyon 812 min 880 manatdır (hər birinin nominal dəyəri 20 manat olan 1590644 səhm). Nizamnamə kapitalında Holcim Ltd 66%, Avropa Yenidənqurma və İnkişaf Bankı 10%, Azərbaycan İnvestisiya Şirkəti 10%, Holcim Auslandbeteiligungs GmbH (Holcimin törəmə şirkəti) 3,63%, digər səhmdarlar isə 10,38% paya malikdirlər. Digər səhmdarlar fiziki və hüquqi şəxslərdir (“Azər İnvest Kompani” MMC-yə, 0,02%-i “Çelsi Kapital” MMC).

CİDDİ RƏQİBLƏRİ PEYDA OLUB

Qeyd edək ki, “Holcim (Azərbaycan)”in illik sement istehsalı

gücü 1,7 milyon tondur. Uzun illər bazarda tək yerli istehsalçı olan “Holcim (Azərbaycan)”in ötən il ciddi rəqibləri əmələ gəlib. Belə ki, 2013-cü ilin yayında illik istehsal gücü 1 milyon ton olan Akkord Sement Zavodu və tam işə düşdükdə illik istehsal gücü 2 milyon ton sement olacaq Norm Sement Zavodu fəaliyyətə başlayıb. Bir sıra ekspertlər yeni sement zavodlarının işə düşməsinin “Holcim (Azərbaycan)”in bu il satışlarının aşağı düşməsinə səbəb olacağını gözləyirlər. ASC-dən isə ölkəmizdə tikinti işlərinin həcmi artdığından sementə tələbatın artacağı və nəticədə də satışların azalmayacağı bildirilir.

Azərbaycan iqtisadiyyatı tarixi müstəvidə

Midiya dövlətində inzibati idarəetmə

Midiya dövlətinin ilkin yaranma ərazisi ellinizm dövründə Kiçik Midiya və ya Atropatena adlanırdı.

Güman edilir ki, Mada dövlətinin inzibati quruluşu sonralar Əhəməni imperiyasının quruluşu kimi Aşşur-Urartu sisteminin daha da inkişaf etmiş forması olmuşdur. Ehtimal olunur ki, inzibati idarəyə, məhkəməyə, maliyyə sisteminə başçılıq etmiş satrapların səlahiyyətləri prinsip etibarilə Aşşur vilayət rəislərinin (bçl pehate, pehatu) səlahiyyətlərinin oxşarı idi.

Hər halda Mada satrapları Aşşurun və Urartunun "qubernatorlarının" yalnız bir qədər dəyişilmiş oxşarları idilər.

Bibliyada və başqa Qədim Şərq mənbələrində "Mada çarı" və "çarlarından", "Mada çarı" və "onun köməkçiləri olan "çarlardan" danışılır. Deyilənlər Mada çarının vassalları və yaxud satrapları olmuşlar.

Mada dövlətinin mövcudluğu dövrünün mahiyyətcə 6-8 onilliklə məhdudlaşmasına (e.ə. VII əsrin sonu – VI əsrin I yarısı) baxmayaraq, onun yaradılmasının İran yaylası və Ön Asiya tayfaları və xalqlarının tarixi üçün böyük əhəmiyyətə malik olması mübahisəsizdir.

Maddi nemətlərin başlıca istehsalçıları əsasən azad icma üzvləri olmuşlar. Hər bir icma üzvü eyni zamanda döyüşçü idi. Mada cəmiyyətinin gücü xeyli dərəcədə bununla izah edilirdi. Kiaksar məhz bu cəhətə arxalanaraq özünün işğalçılıq müharibələrinə başlaya bilmişdi.

Madalılar Kiaksarın böyük işğalçılıq müharibələri zamanından etibarən

Şərqin qədim mədəniyyətləri ilə təmasda oldular və uzunmüddətli olmasa da, Ön Asiyanın ən mühüm qüvvəsinə çevrildilər. Bölgənin sinifli cəmiyyətləri ilə əlaqələr Madada patriarxal dayaqların dağılması prosesini sürətləndirdi.

Mədəni ölkələrdən daxil olmuş sinfi mədəniyyət Mada dövləti qüdrətinin istinad etdiyi hər şeyi sürətlə dağıdırdı. Azad icma üzvü ilə əyanlar arasında intensiv surətdə yaranmağa başlayan və güclənən fərq getdikcə kəskinləşirdi. Sıravi azad icma üzvlərinin istismarı güclənir, ölkənin təsərrüfat həyatında qul əməyinin xüsusi çəkisi artırdı. Qul əməyindən nəinki yalnız hökmdar təsərrüfatında (Herodotun buna dair məlumatları vardır), habelə əyanların təsərrüfatlarında və məbəd torpaqlarında istifadə edilirdi. Polien hələ Deyokun hakimiyyəti dövründə Madada məbəd təsərrüfatının mövcud olduğunu təsdiqləyir.

Atəşpərəstlik etiqadı xidmətçiləri və qədim ənənələrin mühafizəçiləri olan maqlar – kahinlər əyanlarla yanaşı, Mada cəmiyyətində mühüm qüvvə sayılırdılar. Avestada məlumat verilir ki, maqlar qədimdən geniş torpaqlara malik idilər. Şübhəsizdir ki, böyük sərvətlərdən istifadə edən, xalq arasında böyük nüfuza malik olan, möhkəm və mütəşəkkil qüvvəyə çevrilmiş maqlar hökmdarların həm xarici, həm də daxili siyasətinə təsir edirdilər.

Nəticədə, cəmiyyətin əvvəlki strukturu xeyli dərəcədə sarsılır, patriarxal dayaqların dağılması prosesi sürətlənir, sinfi antaqonizm kəskinləşirdi. Mada dövlətinin yaranması ilə Mada nəsli-tayfa və hərbi demokratiya ölkəsindən qədim Şərq tipli dövlətə çevrilməyə başladı.

Herodotun məlumat verdiyi kimi, Mada cəmiyyətində sinfi mubarizə hələ dövlətin meydana gəldiyi zamandan əvvəlki dövrdə mövcud idi. Peyğəmbər İsayanın şəhadətinə görə, erkən dövrdə "gümüşü qiymətləndirməmiş və qızıla həris olmamış" madalılar inkişafın geniş yoluna çıxmışdılar.

Böyük işğalçılıq müharibələri zahirən Madanı gücləndirsə də, onu inkişaf etmiş quldarlıq münasibətlərinə malik olan qüdrətli və qorxulu dövlətə çevirsə də, məhz bu müharibələr tezliklə gəlmiş sonun başlanğıcı idi. Şübhəsizdir ki, madalıların yaratdığı Mada dövlətinin, onun mədəni-tarixi irsinin, müxtəlif ənənələrin və institutların böyük rolu və əhəmiyyəti vardı.

Mövcudluğunun qısamüddətli olmasına baxmayaraq, Mada dövləti İran yaylası hüdudlarından xeyli uzaqda olan çoxsaylı tayfalara və xalqlara təsir etmiş, İran aləminin mədəni və dini mərkəzinə çevrilmişdi. Strabon yazırdı ki, madalılar ermənilərin və daha öncə farsların, onların hökmdarlarının və Asiyada hökmranlıq adətlərinin baniləridir. Mada dövrü Cənubi Azərbaycan tayfalarının tarixində mühüm nailiyyətlər və müxtəlif dəyişikliklər zamanı olmuşdur. İran və Cənubi Azərbaycan sakinlərinin dini həyatında Mada maqlarının rolu xüsusilə böyük idi.

Xədicə RƏHİMOVA

Müasir qlobal iqtisadi şəraitdə Azərbaycan Respublikasında dövlət büdcəsinin icra vəziyyəti

Azərbaycan Respublikası Hesablama Palatası qanunvericiliyin tələblərinə uyğun olaraq, "Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Rəyini Milli Məclisə təqdim etmişdir. Qeyd edək ki, Rəy geniş məlumat bazasına əsaslanan təhlillərin nəticələrini əks etdirir.

Hesablama Palatası tərəfindən Rəydə ölkə iqtisadiyyatını xarakterizə edən makroiqtisadi göstəricilərin, dünya üzrə fiskal trendlərin təhlilinə, dövlət büdcəsinin gəlir və xərc parametrlərinin mövcud iqtisadi potensialın imkanları ilə uzlaşmasının, ayrı-ayrı proqram və layihələrə ayrılmış vəsaitlərdən səmərəli istifadə edilməsinin araşdırılmasına, həmçinin dövlət büdcəsinin icrasını xarakterizə edən göstəricilərin Palata tərəfindən həyata keçirilmiş maliyyə-büdcə nəzarəti tədbirlərinin nəticələri ilə əlaqələndirilməsinə xüsusi diqqət yetirilmişdir.

Müasir iqtisadi şəraitin və Azərbaycan Respublikasının əsas makroiqtisadi nailiyyətlərinin təhlili ilə bağlı Hesablama Palatasının araşdırmalarını ümumi şəkildə belə səciyyələndirmək olar.

Dünya üzrə iqtisadi inkişaf meyilləri və fiskal trendlərin təhlili göstərir ki, 2013-cü il dünya ölkələri tərəfindən iqtisadi sistemin fəaliyyətinin dirçəldilməsi məqsədilə müəyyən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ilə yanaşı, maliyyə bazarlarında müşahidə edilən tərəddüdlər və böhranın təsiri ilə proseslərin nəticələrinin proqnozlaşdırılmasında yaranan çətinliklərdən doğan risklərlə xarakterizə oluna bilər. Dünya İqtisadi Forumu tərəfindən aparılan sorğularda da maliyyə bazarlarında mövcud disbalans, həmçinin sistemli maliyyə böhranı və əhalinin gəlirlərinin paylanmasında bərabərsizliyin artması hazırkı şəraitdə qarşıdakı əsas təhdidlər kimi göstərilmiş, innovativ iqtisadiyyatın inkişaf etdirilməsi və daha çox insan kapitalının aktivləşməsinə yönəldilməsi vəziyyətdən çıxış yolu olaraq əsas ideya kimi təklif edilmişdir.

Nüfuzlu beynəlxalq təşkilatların iqtisadiyyat üzrə ekspertləri tərəfindən iqtisadi artım tempinin yüksəlməsini təmin edəcək hərtərəfli tədbirlərin həyata keçirilməsi və monetar siyasətin alətlərindən çevik və effektiv istifadə edilməsi inkişaf etmiş ölkələr üçün əsas hədəf kimi göstərilmiş, bununla yanaşı, inkişaf etməkdə olan ölkələrin maliyyə bazarlarında müşahidə edilən volatillik (dəyişkənlik) fonunda ABŞ-ın Federal Ehtiyat Sistemi tərəfindən 2013-cü ildə aktivlərin alınması təcrübəsindən imtina etməsindən doğan narahatlıq dəfələrlə ifadə olunmuşdur.

2013-cü ildə dünya iqtisadiyyatı üzrə real artım tempi 3,0% olmaqla 2012-ci illə müqayisədə 0,2%, inkişaf etmiş ölkələrdə 1,3% təşkil etməklə 0,1%, inkişaf etməkdə olan ölkələrdə 4,7% olmaqla 0,2%-dək azalmışdır.

Böyük yeddiliyə daxil olan ABŞ, Yaponiya, Kanada, İtaliya kimi dövlətlərdə əvvəlki illə müqayisədə ÜDM-in aşağı artım templəri müşahidə edilmişdir. Ümumən, Avrozona, Böyük Britaniya, Yaponiya və İtaliya böhrandan öncəki iqtisadi artım templərini tam bərpa edə bilməmişdir.

Analitiklər tərəfindən hazırkı templərlə qarşıdakı illərdə iqtisadi uğurlarına görə dünya liderləri olması ehtimal edilən BRICS beşliyinə daxil olan dövlətlərdən Rusiya Federasiyası və Cənubi Afrika Respublikasında (CAR) ÜDM-in real artım templəri zəifləmiş, Çin Xalq Respublikasında isə artım tempi əvvəlki nisbətdə qalmışdır **(Şəkil 1).**

* BRICS abbreviaturasının açılışı: B – Brazil (Braziliya), R – Russia (Rusiya Federasiyası), I – India (Hindistan), C – China (Çin Xalq Respublikası), S – South Africa Republic (Cənubi Afrika Respublikası). Bu 5 ölkə son illərdə göstərdiyi real iqtisadi artım tempinə görə aparıcı ölkələr hesab edilir. Həmçinin, analitiklər tərəfindən hazırkı templərlə qarşıdakı illərdə iqtisadi uğurlarına görə dünya liderləri olması ehtimal olunur.

Digər tərəfdən, dünya bazarlarında bir sıra mühüm valyutaların məzənnələrində son illərdə müşahidə edilən volatillik (dəyişkənlik), alternativ və likvid aktiv kimi nəzərdən keçirilən qızılın qiymətində əhəmiyyətli azalma, Avrozonaya üzv ölkələrdə büdcə kəsirinin azaldılması baxımından aparılan uğurlu fiskal konsolidasiya (büdcə qənaəti), Yaponiyada aparılan "Abenomika" islahatları, ABŞ-da Mərkəzi Bankın funksiyalarını həyata keçirən Federal Ehtiyat Sistemi (FES) tərəfindən qiymətli kağızların alışının azaldılması dünyanın dəyişən makroiqtisadi mənzərəsinin əsas xüsusiyyətlərindən olmuşdur.

Avropa Birliyinə daxil olan ölkələrdə maliyyə islahatları başa çatdırılmamış və artım templəri hələ zəif olsa da, ümumi iqtisadi təhdidlərin azaldığını qeyd etmək olar. Əmək bazarında məşğulluğun təmin edilməsi, əmək məhsuldarlığının artırılması və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi birlik ölkələrinin, xüsusilə inkişaf etmiş ölkələrin, əsas hədəfləri sırasında olmuşdur.

2013-cü il dünyanın bir çox ölkələrində fiskal siyasətin makroiqtisadi tarazlıqla uzlaşdırılması və bu fonda orta müddətli dövrdə iqtisadi artımın, məşğulluğun təmin edilməsi cəhdləri ilə müşayiət edilmişdir. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətlərdə makrofiskal çərçivənin davamlı olaraq yenilənməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

2013-cü ildə ABŞ-da fiskal konsolidasiya tədbirləri davam etmişdir. Belə ki, "Ötən ilin federal büdcə hesabatı və qarşıdakı illər üzrə proqnoz göstəriciləri" üzrə cari ilin mart ayında təqdim edilmiş məlumatlara görə gəlirlərin 225 mlrd. ABŞ dolları (o cümlədən, gəlir vergisi üzrə 184 mlrd. ABŞ dolları) məbləğində artırılması, paralel olaraq federal büdcə xərclərinin 82 mlrd. ABŞ dolları (o cümlədən, sosial xərclər üzrə 54 mlrd. ABŞ dolları) məbləğində azaldılması nəticəsində 2013-cü ildə büdcə kəsirinin ÜDM-ə faiz nisbətinin 7,0%-dən (1087 mlrd. ABŞ dolları) 4,1%-dək (680 mlrd. ABŞ dolları) endirilməsi mümkün olmuşdur.

Ümumiyyətlə, dünya üzrə fiskal qənaət tədbirlərinin artım templəri zəifləsə də, Avropa Birliyinə daxil olan dövlətlərdən 12-sində davamlı fiskal islahatların aparılması istiqamətində işlər davam etdirilmişdir.

Xüsusilə, bu islahatlar özünü PIIGS beşliyi kimi tanınan, borc böhranı təhlükəsi ilə üzləşmiş dövlətlərdə daha qabarıq şəkildə göstərmişdir. 2013-cü ilin yekunlarına görə, Avrozona üzrə büdcə kəsirinin 3,7%-dən 3,0%-dək (o cümlədən, PIIGS ölkələri üzrə orta göstərici 6,9%-dən 5,0%-dək) azaldılmasına nail olunmuşdur. Qeyd edək ki, PIIGS ölkələrinə P – Portugal (Potuqaliya), I – Ireland (İrlandiya), I – Italy (İtaliya), G – Greece (Yunanıstan), S – Spain (İspaniya) daxildir. Bu ölkələrdə hazırda dövlət borclanması və büdcə kəsirinin həcminin əhəmiyyətli artımı müşahidə edilir ki, bu da son nəticədə həmin ölkələrin iqtisadi və maliyyə vəziyyətinin pisləşməsinə, həmçinin defolt (borc öhdəliklərinin yerinə yetirilməməsi) təhlükəsinin yaranmasına səbəb olur.

İnkişaf etmiş ölkələrdə fiskal islahatların aparılmasına baxmayaraq, məcmu dövlət borcunun ÜDM-ə faiz nisbəti yenə də yüksək olaraq qalmışdır. Belə ki, Avropa Birliyi ölkələrində maliyyə sektorunda son illərdə müşahidə edilən problemlər tam olaraq hələ də öz həllini tapmamışdır.

Yaponiyada "Abenomika"nın əsas fiskal xüsusiyyətləri: ötən və cari ildə istehlak vergilərinin həcminin ÜDM-ə faiz nisbətinin 5,0%-dən 8,0%-dək yüksəldilməsi, Çin Xalq Respublikasında isə ekspansionist fiskal siyasətin həyata keçirilməsi müşahidə edilmişdir. Prioritet istiqamətlər kimi təhsil, səhiyyə və sosial xərclərin həcminin davamlı artırılması müəyyənləşdirilmişdir.

Ümumiyyətlə, fiskal konsolidasiya tədbirlərinin yekunu olaraq, dünya üzrə məcmu balans 2009-cu ildən 2013-cü ilədək müvafiq olaraq 7,8%-dən 3,8%-dək, o cümlədən inkişaf etmiş ölkələr üzrə 9,5%-dən 4,9%-dək, Avrozona üzrə isə 6,4%-dən 3,0%-dək azalmışdır **(Şəkil 2).**

Şəkil 2.Dünya üzrə dövlət borcunun ÜDM-ə faiz nisbətinin illər üzrə dəyişməsi



Mənbə: Fiscal Monitor, Public expenditure reform, Making difficult choices, April 2014

Məlum olduğu kimi, bu nisbətin azalma meyli, fiskal tarazlığın təmin edilməsi üçün mühüm şərtdir.

Azərbaycan Respublikasının 2013-cü il üçün əsas makroiqtisadi göstəriciləri qeyd edilən risklər və dünya ölkələrinin böhrandan sonrakı inkişaf templərinin arzulanan səviyyədən hələ də uzaq olması ilə xarakterizə olunan son dövrdə, xüsusilə 2013-cü ildə Azərbaycanın iqtisadi inkişaf tempinin təmin edilməsinə, mühüm layihələr və proqramların müvəffəqiyyətlə icrasına nail olunmuşdur.

2014-cü ilin yanvar ayının 8-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti Möhtərəm cənab İlham Əliyev hesabat ili barədə qeyd etmişdir: "2013-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Azərbaycanda böyük layihələr icra edilmişdir, ölkəmizin beynəlxalq nüfuzu artmışdır. Ölkədə aparılan islahatlar daha da dərinləşmişdir. Bir sözlə, biz ölkəmizin uğurlu inkişafını təmin edə bildik."

Təhlili aparılan dövrdə Azərbaycan Respublikası üzrə real iqtisadi artım tempi 5,8% olmuşdur **(Şəkil 3).** Ölkəmiz üzrə real iqtisadi artım tempi dünya üzrə artım tempini 2,8 faiz bəndi, inkişaf etmiş ölkələr üzrə müvafiq göstəricini 3,9 faiz bəndi üstələmişdir.

Şəkil 3.Bir sıra ölkələrdə 2013-cü illərdə real iqtisadi artım templəri, %-lə



Mənbə: World Economic Outlook, Recovery Strengthens, Remains Uneven, April 2014

Ölkəmizdə ümumi daxili məhsulun həcmi 2013-cü ildə 57,7 milyard manata (73,6 milyard ABŞ dolları) çatmışdır. ÜDM-in 46,3%-i sənaye sahələrində, 11,8%-i tikinti kompleksində, 5,3%-i kənd təsərrüfatında, 4,8%-i nəqliyyatda, 8,9%-i ticarət və pullu xidmət sahələrində, 1,8%-i rabitədə, 14,7%-i sosial və digər xidmətlərdə istehsal olunmuş, 6,4%-i isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Ümumiyyətlə, ÜDM nominal ifadədə son 10 ildə 9,4 dəfə artmışdır ki, bu da MDB dövlətləri arasında ən yüksək göstəricidir.

Adambaşına düşən ÜDM-in həcmi 6207,3 manat və ya 7912,5 ABŞ dolları təşkil etmiş, qeyri-neft sektoru üzrə artım 10,0%-ə bərabər olmuşdur. Hər iki göstərici "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilmiş adambaşına ÜDM-in 2020-ci ilədək 13 min ABŞ dollarına və qeyri-neft sektoru üzrə real artım tempinin orta hesabla illik 7,0% nisbətində təmin edilməsi hədəfləri ilə uzlaşır.

Adambaşına ÜDM-in artımına görə, ölkəmiz MDB dövlətləri arasında Rusiya Federasiyası və Qazaxıstanla birlikdə ilk sıralarda yer alır.

2013-cü ildə qeyri-neft sektorunun ÜDM-də payı 53,5%-dən 56,6%-dək yüksəlmiş, 2012-ci illə müqayisədə 10,0% artmışdır **(Şəkil 4).** Həmçinin, qeyri-neft sektoru üzrə real artım tempinin davamlı olaraq artması və bu artımın neft sektoru üzrə artımı əhəmiyyətli şəkildə üstələməsi Azərbaycan Respublikasının 2013-cü il və gələn üç il üçün iqtisadi və sosial inkişaf Konsepsiyasında öz əksini tapan ÜDM-in strukturunun təkmilləşdirilməsi vəzifəsinin reallaşdırılmasına xidmət etmiş olur.

Şəkil 4.Qeyri-neft sektoru üzrə real artım, illər üzrə faizlə



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Qeyd etmək lazımdır ki, 2013-cü ildə qeyri-neft sektorunda iqtisadi artımı dəstəkləmək məqsədilə Mərkəzi Bank tərəfindən pul siyasətinin əsas alətlərindən hesab edilən uçot dərəcəsinin 5,0%-dən 4,75%-dək azaldılması barədə qəbul edilmiş qərar iqtisadiyyatın kreditləşməsi üçün kommersiya banklarının əlavə maliyyələşməyə çıxış imkanlarını artırmışdır.

Əhalinin gəlirləri əvvəlki illə müqayisədə 8,0% artaraq 37,6 milyard manata, hər nəfərə düşən məbləği isə 6,6% artaraq 4039,6 manata çatmışdır. 2012-ci ilə nisbətən inflyasiya səviyyəsinin 2,4% təşkil etdiyini nəzərə alsaq, əhalinin pul gəlirlərinin artım tempi daha yüksək olmaqla inflyasiyanın artım tempini 3,3 dəfə üstələmişdir.

2013-cü ildə əhalinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, ötən il minimum əmək haqqının 12,3%, əmək pensiyasının baza hissəsinin 17,6%, bütün növ sosial müavinətlərin 10%-67%, dövlət sektorunda çalışanların əmək haqlarının isə orta hesabla 10% artımı təmin edilmişdir. Əhalinin sosial rifahının gücləndirilməsi məqsədi ilə həyata keçirilən tədbirlər respublikada yoxsulluq səviyyəsinin azalması ilə nəticələnmişdir.

2013-cü ildə xüsusi əhəmiyyət kəsb edən sosial layihələrindən biri kimi vətəndaşların keçmiş SSRİ Əmanət Bankında qalan əmanətlərinin fərdi birdəfəlik ödənmələrin verilməsi prosesi başa çatdırılmışdır.

2013-cü ildə ölkə üzrə orta aylıq əmək haqqının həcmi 423 manat və ya 539,5 ABŞ dolları təşkil etmişdir. Bu məbləğ 2012-ci illə müqayisədə 6,2%, 2009-cu ilin eyni göstəricisindən isə 42% çoxdur. Əmək haqqı artımı sosial-iqtisadi siyasətin nəticə göstəricisi kimi, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində atılan mühüm addımların tərkib hissəsidir.

2013-cü il ərzində ölkədə iqtisadiyyatın inkişaf etdirilməsinə, müxtəlif sosial və infrastruktur layihələrinin həyata keçirilməsinə 22,0 mlrd. manat (28,0 mlrd. ABŞ dolları) məbləğində investisiya yönəldilmişdir. İnvestisiyaların 62,4%-i daxili mənbələr hesabına, 37,6%-i isə xaricdən cəlb edilən vəsaitlər hesabına maliyyələşdirilmişdir **(Şəkil 5).**

Şəkil 5. 2010-2013-cü illərdə bütün maliyyə mənbələrindən ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi, mln. manatla

Ölkənin mühüm makroiqtisadi göstəricilərindən olan strateji valyuta ehtiyatlarının artımı ötən ildə də davamlı xarakter daşımışdır. Ayrı-ayrılıqda götürdükdə, Dövlət Neft Fondunun aktivləri son 5 ildə 2,3 dəfə, Mərkəzi Bankın valyuta ehtiyatları isə 2,7 dəfə artmışdır. Strateji valyuta ehtiyatlarının əsas iqtisadi mahiyyətinin ən azı 3 aylıq idxalı əvəz etməyə imkan verməsi şərti ötən ildə təmin edilmişdir, belə ki, bu məbləğ ÜDM-in 70%-ə yaxın hissəsini təşkil edir. Ümumiyyətlə, qeyd edək ki, strateji ehtiyatların həcmi 2013-cü ilin yekunlara görə, 5 illik idxalı əvəz etməyə imkan verir.

Eyni zamanda, Mərkəzi Bankın 2013-cü ilin yanvar-dekabr ayları üzrə hazırladığı "Pul siyasətinin icmalı" hesabatına əsasən, Azərbaycan bu göstəriciyə görə dünyanın ilk 20 ölkəsi sırasında qərarlaşmışdır.

Ötən ildə 110 min yeni iş yeri açılmışdır ki, onlardan 80 mini daimi iş yeridir. İşsizliyin səviyyəsi 5%-ə düşmüş, yoxsulluğun səviyyəsi isə 5,3% təşkil etmişdir. Bu göstəricilər sosial siyasətin əhalinin maddi rifah halının yaxşılaşdırılmasına hədəflənməsi prinsipinin təmin edildiyini göstərir.

2013-cü ildə Azərbaycanın neft-qaz potensialının inkişafı və möhkəmləndirilməsi üçün mühüm sazişlər imzalanmışdır. 2012-ci ildə Trans Anadolu Boru Kəməri (TANAP) layihəsi ilə bağlı sazişin imzalanması nəticəsində 2013-cü ilin iyun ayında Trans-Adriatik (TAP - Trans Adriactic Pipline) boru xətti əsas marşrut kimi seçilmişdir. Bu tip investisiya layihələri ölkə iqtisadiyyatına əhəmiyyətli şəkildə töhfə verir. İlkin qiymətləndirmələrə görə, "Şahdəniz-2", TANAP, TAP kimi layihələrin icrası 45 milyard ABŞ dolları məbləğində investisiyanın cəlb edilməsini şərtləndirəcəkdir. Regional müstəvidə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin maliyyələşdirilməsi məqsədilə son 7 ildə Dövlət Neft Fondunun büdcəsindən 367,1 milyon manat və ya 464,1 milyon ABŞ dolları vəsait yönəldilmişdir. Bu layihələr nəqliyyat sektorunun dayanıqlı inkişafı ilə yanaşı yaxın gələcəkdə büdcə gəlirlərinin strukturunda qeyri-neft sektoru olaraq əhəmiyyətli gəlir komponentinə çevriləcəkdir.

Yuxarıda sadalanan layihələrlə yanaşı, nəqliyyat sektorunun ümumi inkişaf göstəriciləri də ötən ildə artmışdır. Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən il ərzində 218 milyon ton yük və 1,7 milyard nəfər sərnişin daşınmış, 2012-ci ilə nisbətən müvafiq olaraq yük daşınması 3,4%, sərnişin daşınması isə 8,0% yüksəlmişdir. Bütün bunlar bu sektorun davamlı olaraq inkişaf meylini göstərməklə, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilən prioritet istiqamətlərdən biri kimi müəyyən edilmiş nəqliyyat-logistika sektorunun inkişafının qeyri-neft sektorunun prioritetlərindən biri olaraq seçilməsi və onun gələcəkdə iqtisadi lokomotivə çevrilməsini şərtləndirir **(Şəkil 6).**

Şəkil 6. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında prioritet istiqamətlər



(Davamı gələn sayımızda)

Şəkil 1. 2012-2013-cü illərdə dünya üzrə real artım templəri, %-lə



Mənbə: World Economic Outlook, Recovery Strengthens, Remains Uneven, April 2014

Azərbaycan Respublikası Hesablama Palatası

Dünya xəbərləri

Amerikanın kredit reytinqi böyük durğunluğa davam gətirdi

(Əvvəli ötən sayımızda)

Senator Makkeyn bütün tənqidçilərə xatırlatdı ki, federal xərclərin astronomik sürətdə artması konqresdə demokratların dominantlığı zamanı, Obama prezident olarkən baş vermişdir. Obamanın prezidentliyi zamanı milli borc ÜDM-in 100%-nə yaxınlaşmışdır. Federal hökumətin xərcləri 21,4%, sosial proqramlara ayrılan vəsaitlər isə 54% artmışdır. «Food stamps» (ərzaq möhürü) alan amerikalıların sayı 46 milyon nəfərə çatıb və ölkə əhalisinin 15%-ni təşkil edir. Bu, Amerika tarixi ərzindən rekord göstəricidir. Obamanın prezidentliyi dövründə ərzaq məhsullarının, benzinin və pambığın qiyməti müvafiq olaraq 57%, 34% və 210% artmışdır. Sənaye mallarının və xidmətlərin də qiymətləri artmışdır. Yalnız evlərin dəyəri aşağı düşmüşdür. Bütün bunlar inflyasiyanın artdığını göstərir. Nə Obama, nə də onun komandası bunu görmür. ABŞ-ın Federal Ehtiyat Sisteminin keçmiş rəhbəri Bernanke deflyasiya təhlükəsi haqqında səylə danışırdı. Borclanma həddinin yüksəlməsi yeni iş yerlərinin yaradılmasına gətirib çıxarmır. Onlar (iş yerləri) artan iqtisadiyyat zamanı yaranır, bu artım isə, demək olar ki, yoxdur. Kitab satışı üzrə ən iri şirkət olan «Borders» bütün mağazalarını bağlamış, nəticədə 11 min nəfər iş yerini itirmişdir. «Challenger», «Gray and Christmas» şirkətləri yaxın zamanlarda 66 min iş yerinin, əczaçılıq şirkəti «Merch» isə 13 min iş yerinin azaldılmasını planlaşdırır. Ölkədə işsizliyin səviyyəsi 9%-dir. Faktiki olaraq, Amerikanın əmək qabiliyyətli əhalisinin 20%-i son aylarda artıq iş yerlərini axtarmırlar.

İlk dəfə olaraq, son illər ərzində Amerika fəhlələrinin əmək məhsuldarlığı səviyyəsi aşağı düşmüşdür. Məsələn, əmək məhsuldarlığı 2011-ci ilin birinci rübündə 0,3 faiz, ikinci rübündə isə 0,6% azalmışdır. 2011-ci ilin ilk üç ayı ərzində əməyin dəyəri 4,8% artmışdır. Təbiidir ki, şirkətlərin mənfəəti azalmışdır. Bu onların istehsalı genişləndirmək imkanını daraldır. «New York Times» qəzetinin iqtisadi icmalında qeyd edildiyi kimi, ölkənin iqtisadi sağlamlığının əsas göstəriciləri olan «işsizlik, mənfəət, əmək məhsuldarlığı və sənaye məhsulu buraxılışı 2011-ci ildə 2007-ci ilə nisbətən pis olmuşdur». Amerikanın bugünkü iqtisadi vəziyyəti və inflyasiyanın mövcudluğu zamanı ölkələrin günlük real təhlükəsi yarana bilər. Lakin demokratlar və solyönümlü kütləvi informasiya vasitələri nəinki bu təhlükəni görmürlər, əksinə hamını inadla inandırmağa çalışırlar ki, Amerika düzgün istiqamətdə hərəkət edir. Belə ki, İllinoys ştatından olan Nümayəndələr palatasının üzvü Ceyn Çakovskinin sözlərinə görə, «Prezident Obamanın siyasəti və liderliyi sayəsində son illərdə xeyli tərəqqinin şahidi olmuşuq».

Obamanın iqtisadi siyasəti aşkar və sadədir: xərcləmək, borc almaq və yenə xərcləmək. Borclanma və vergilərin səviyyəsinin yüksəlməməsi iş yerlərini və gəlirləri azaldan, təşəbbüskarlığı məhdudlaşdıran və sərt tənzimləyən hökumət proqramlarını sonsuz olaraq təmin edə bilməz. Hökumət, xüsusilə sol liberal yönümlü hökumət bacarıqlı menecer olmayıb və ola da bilməz. Qinqriç sərbəst fermerlərin xüsusi təşəbbüsü ilə müqayisədə hökumət məmurlarının görünməmiş dərəcədə qeyri-səmərəli işini misal gətirmişdir. Ayova ştatında qarğıdalının məhsuldarlığı 1971-ci ilə nisbətən 2009-cu ildə 60% artmışdır. Bu dövr

ərzində ştatda yolların və körpülərin vəziyyəti nəinki yaxşılaşmamış, əksinə pisləşmişdir. Qarğıdalının nəql edilməsi zamanı fermerlərin itkiləri artmışdır. Təbiidir ki, yolların və körpülərin təmiri üçün yüzlərlə milyard dollar ayrılmışdır. Faktiki olaraq, bu pullar boş yerə sərf olunmuşdur.

Obama və demokratlar bu ağır vəziyyətdən çıxış yolunu köhnə vergilərin artırılmasında və yeni vergilərin tətbiq edilməsində görürlər. Onlar daim varlıları təqsirləndirirlər ki, bu şəxslər vergilərin ədalətli payının ödənilməsindən yayınırlar. Bu tezisi qoruyaraq, Obama susur ki, bu gün 25% amerikalılardan tutulan vergilər bütün vergi daxilolmalarının 86%-ni təşkil edir. Bu o deməkdir ki, varlıların vergi payı əksər amerikalıların ödədiyi vergi payından xeyli yüksəkdir. Beləliklə, bu gün varlılar Obama hökumətinin bütün təşəbbüslərini ödəyirlər. Nəyə görə vergilər yalnız onlar üçün artmalıdır? Bu gün Amerikada varlılar yüksək ixtisaslı peşəkarlardır. Onlar buna uzunmüddətli inadkar və daimi təhsil nəticəsində nail olmuşlar. Varlılar öz milyonlarını ağır iş prosesində qazanırlar. Demokratlar inandırmağa çalışırlar ki, bu insanları onların ixtisasına və halal əməyinə görə daha yüksək vergilərlə cəzalandırmaq lazımdır. Solyönümlülərin nöqteyi-nəzərindən bu ədalətlidir. Hətta əgər varlılara bu gün vergi norması 35%-dən 100-ə qədər qaldırılsa, yəni onların əldə etdiyi gəlirlər tam müsadirə olsa da, hökumət yalnız 365 mlrd. dollar toplaya bilər. Xərclərin müasir səviyyəsinin saxlanılması zamanı bu pullar yalnız 5 həftəyə çatır. Bəs, sonra nə etməli? Yalnız Amerikanın orta sinifi üçün vergilərin artırılması qalır. Prezident Obama and içərək bildirmişdir ki, o, bunu heç vaxt etməyəcəkdir. Bu, «nazik» vəziyyətdən çıxış yolu nədən ibarətdir?

Prezident Obamanın iqtisadi müşaviri Pol Volker yeni «Value-Added Tax (VAT)»-ə əlavə dəyər vergisinin tətbiqi ideyasını müdafiə edir. Pol Volkeri konqresin Büdcə komitəsinin rəhbəri, demokrat Kent Konrad, eləcə də Nensi Pelosi, bir çox demokratlar və solyönümlü kütləvi informasiya vasitələri fəal surətdə dəstəkləyirlər. VAT müəssisənin istehsal etdiyi əmtəənin (xidmətin) əlavə dəyərinə (qiymətliliyinə) həmin müəssisənin (servisin) töhfəsinin cəlb edildiyi vergidir. Bu əmtəə (xidmət) vergisi yalnız istehsalın son mərhələsində yox, əmtəə dəyəri artdıqca istehsalın hər hansı mərhələsində toplanır. VAT-ı başlanğıc (xammal) material müəssisəyə daxil olan zaman, bu məhsul mağazaya və ya anbara daxil olan zaman və nəhayət, məşhur satıcıya (anbardan və ya mağazadan) satılan zaman ödənilir. VAT-ı əmtəə istehsalının hər bir mərhələsində onun dəyərinə əlavə edirlər və buna görə də o, alıcıdan gizli saxlanılır. Bu vergini asanlıqla yığmaq olar, lakin onu görmək çətindir. VAT-ın tətbiqi zamanı əmtəə istehsalının dəyəri və onun son qiyməti artır. Bu vergi növü (yəni ƏDV) ilk dəfə 1954-cü ildə fransız iqtisadçısı Moris Lare tərəfindən Avropa birliyinin müxtəlif ölkələrinə müxtəlif vergi sistemlərinin tənzimlənməsi aləti kimi tövsiyə edilmişdir. Lakin praktiki olaraq, bu vergi dərhal «ümumi rifah» dövlətinin daim artmaqda olan xərclərinin örtülməsi üçün vasitələrin yayılmasının etibarlı və gizli üsuluna çevrildi. «The Congressional Research Service» qiymətləndirmişdir ki, VAT-ın hər bir faizi 50 mlrd. dollar gətirir. Görünür ki, onun tətbiqi son məhsulun dəyərini artırır. Həmişə olduğu kimi, bu prezident Obamanın və demokratların sanki qayğısına qaldıqları kasıblara və ölkə əhalisinin aztəminatlı təbəqəsinə ağrıdıcı zərbə vurur. ABŞ-da VAT-ın olmaması Avropa ölkələri ilə müqayisədə Amerikada əmtəələrin və xidmətlərin xeyli aşağı qiymətlərinin başlıca səbəblərindən biridir.

İşləyən amerikalılardan pulu alaraq, Obama hökuməti ağılsız olaraq onları sola və sağa xərcləyir. Məsələn, EPA nəinki ölkənin energetika sənayesini dağıtmaqda təhlükə yaradan mübahisəli məhdudiyyətlər tətbiq edir, həm də ayrılmış vəsaitləri israf edir. Belə ki, Çinə kömür şaxtalarında karbon emissiyasının azaldılması və ətraf mühitin qorunması üzrə standartların işlənməsi üzrə tədqiqatlar üçün 27 mln. dollar göndərmiş, Tailanda donuzçuluq fermalarında metanın intilizasiyası üçün 700 min dollar vermiş, İndoneziya Cakartada havanın təmizlənməsi üçün 15 min dollar almış, İnterpola «Carbin trading» proqramına nəzarət üçün 150 min dollar ayırmış, BMT-də təmiz enerjinin işlənib hazırlanması proqramı üçün 1,2 mln. dollar xərcləmişdir. Senator Cim İnhof aşkar etdi ki, EPA siyasi məqsədlər üçün liberal lobbist qruplarına pul verir. İqtisadiyyatın stumullaşdırılmasının çoxmilyardlı proqramından bilavasitə ölkə iqtisadiyyatına ayrılmış vəsaitlərin 10%-ə qədəri yönəlmişdir. Qalan pullar, məsələn, keçilməz (tupikdə olan) yolların tikintisinə, Cənubi Amerikada hər hansı bir həşəratın, Kaliforniyada nadir sürünən heyvanların həyatının öyrənilməsinə və digər belə layihələrə sərf olunmuşdur. Bu hallar Amerikanın kütləvi informasiya vasitələrində ətraflı işıqlandırılmışdır. Heç bir vergi Obamanın belə təşəbbüslərinin maliyyələşməsinə çatmaz. Tibbi islahatı sürətləndirərək, Obama vəd etdi ki, səhiyyə xərcləri azalacaqdır. Lakin «Centers for Medicare and Medicaid Services»in məlumatlarına görə, bu xərclər ildə 5,8% artacaqdır. Səhiyyənin ümumi xərclərində hökumət məmurlarının tibbi xərclərinin payı artıq 2010-cu ildə 45% təşkil etmişdir.

Maykl Corc öz həmkarları ilə birgə xərclərin səmərəliliyinin qiymətləndirilməsi və onların azaldılması metodunu işləyib hazırlamışdır. Bu metod onlar tərəfindən «Learn Six Sigma (LSS) adlandırılmışdır. LSS metodu «Xerox», «Caterpillar», «Motorola» kimi iri firmalar tərəfindən uğurla tətbiq olunur. «Motorola» şirkəti elan etmişdir ki, məsrəflərin azaldılması nəticəsində o, 1,5 min iş yerinin Çindən qaytarılmasını planlaşdırır. 2004-cü ildə hərbi nazirlik Maykl Corcu daxili xərclərin azaldılması proqramının işlənib hazırlanması üçün dəvət etmişdir. Bu proqramın tətbiqinin ilkin mərhələsində 22 mlrd. dollara yaxın qənaət edilmişdir. Nazirlik LSS metodundan uğurlu istifadəyə görə illik mükafat təsis etmişdir. Bu mükafatı artıq 17 müxtəlif təşkilat və firma almışdır. «Strong America Now» ictimai qrupu aşkar etdi ki, bütün hökumət xərclərinin 25%-ə yaxını mənasızdır və onlardan ağrısız olaraq imtina etmək olar. Bu, hər il 500 mlrd. dollardan 700 mlrd. dollara qədər qənaət etməyə imkan verəcəkdir. Bu qrup həmçinin Ağ Evin məmurlarının vəd etdiyi kimi, 2015-ci ilə kimi yox, 2017-ci ilə qədər federal büdcənin balanslaşdırılması və federal borcun ləğvi proqramını işləyib hazırlamışdır. Prezident Obamanın Administrasiyası sevinclə LSS metodundan yapışmalı idi. Lakin Obama hələ dövlət xərclərini ciddi azaltmağa tələsmir.

Prezident Barak Obamanın iqtisadi kursunu bəyənməyən amerikalıların sayı artmaqda davam edir. «Reuters/Ipsos»un apardığı sorğu göstərdi ki, bu kursa dəstək 2011-ci ilin avqust ayının 4-8 tarixində 49%-dən 45%-ə qədər aşağı düşmüşdür. «Gallup» ölkə əhalisinin üç qrupu arasında tədqiqat aparmışdır. Birinci qrupa ayda 2000 dollardan az, ikinci qruppa 5000 dollardan 7000 dollaradək, üçüncü qrupa isə 8000 dollardan yuxarı əmək haqqı qazananlar daxil olmuşdur. Məlum olmuşdur ki, Obamanın iqtisadi kursunu bəyənənlərin sayı 2011-ci ilin iyununda 54%-dən iyulunda 43%-ə, ikinci qrupda 52%-dən 38%-ə düşmüş, üçüncü qrupda isə 41-43% həddi səviyyəsindədir. Artıq amerikalıların 66%-i hesab edir ki, ölkə iqtisadiyyatı Obamanın prezidentliyi dövründə pisləşmiş, 73% əmindir ki, Amerika düzgün olmayan yolla gedir və yalnız əhalinin 21%-i onu dəstəkləyir. Əhalinin 47%-i düşünür ki, Amerikanın iqtisadiyyatı pisləşir. Bu son 30 ildə ən aşağı göstəricidir. Hətta demokratların istinadgahı kimi, Nyu-York Ştatında Obamanın tərəfdarlarının kəskin azalması baş vermişdir. «Quinnipiac University»nin sorğusunun nəticələrinə görə, 2011-ci ilin iyun ayında bu rəqəmlər dəyişərək müvafiq olaraq 45% və 489% təşkil etmişdir. «USA Today/Gallup»un məlumatlarına görə, 2011-ci ilin 8-11 avqust tarixində sorğuların 53%-i borclanma səviyyəsinin yüksəldilməsi haqqında əldə olunan razılaşmaya mənfi münasibət bəsləyib, yalnız 38% onu dəstəkləyir. Beləliklə, Obamanın iqtisadi siyasətini bəyənməyən amerikalıların sayı daim artmaqdadır.

dosent Fərhad QARAYEV

Bakının ada rayonunda Çörək Kombinatı tikilir

Pirallahı rayonunda əhalinin çörəyə olan tələbatı nəzərə alınaraq, S.Bağırov küçəsində Çörək Kombinatının tikintisi aparılır.

Bu barədə Pirallahı rayon İcra hakimiyyətindən bildirilib.

Bu vaxta qədər qəsəbədə Çörək Kombinatı olmayıb. "Çörək və un məmulatları kombinatı"nın 30 min əhalini çörəklə təmin etməyə malik istehsal gücü olacaqdır. Xəmirin yoğrulmasından çörəyin bişirilməsinədək bütün proseslər tam avtomatlaşdırılacaq, kombinatda 30 nəfər işlə təmin olunacaqdır. Qeyd edək ki, burada müxtəlif çeşidli çörək və un məmulatları istehsal ediləcəkdir.

"Kövsərbank" nizamnamə kapitalını artıracaq

Lisenziyasını bərpa etmiş "Kövsərbank" ASC nizamnamə kapitalını Mərkəzi Bankın tələbinə uyğunlaşdırmaq üçün səhm emissiyası planlaşdırır.

Bu barədə Bankın İdarə Heyətinin sədri Heydər İbrahimov məlumat verib: "Hazırda "Kövsərbank"ın kapitalı 12 milyon manat civarındadır. Mərkəzi Bankın tələbinə görə bu göstərici 50 milyon manata çatdırmalıdır. Ona görə də Bakı Fond birjasında 38 milyon manatlıq səhm emissiyasının həyata keçirilməsini planlaşdırırıq".

SƏHMLƏRİ XARİCİ SƏRMAYƏÇİLƏR DƏ ALACAQ

Emissiya çərçivəsində hər birinin nominal dəyəri 200 manat olan 19 min səhmin buraxılması nəzərdə tutulub. H.Ibrahimovun sözlərinə görə, səhmlərin bir hissəsinin xarici investorlar tərəfindən alınacağı gözlənilir: "Adətən, xarici investorlar səhmlərin 20%-ə qədərinə sahib olmağa üstünlük verirlər, bu mənada buraxacağımız səhmlərin təqribən 10 milyon manatlıq hissəsinin xarici sərmayəçilər tərəfindən alınacağını gözləyirik".

BİR AY SONRA FƏALİYYƏTƏ BAŞLAYIR

Bank rəhbəri bildirib ki, hazırda "Kövsərbank"ın fəaliyyətə başlaması üçün hazırlıq işləri davam edir. Bankın ödəmə infrastrukturuna, yəni yerli və xarici ödəmə sistemlərinə qoşulması işi aparılır: "Bütün bu işlər təqribən 1 ay çəkəcək. Ondan sonra bank real fəaliyyətə başlayacaq".

Bank Silk Vey ASC-nin 31 dekabr 2013-cü il tarixinə balans hesabatı

	Qeydlər	2013 AZN	2012 AZN
Aktivlər			
Nağd vəsaitlər və Mərkəzi Bankda pul vəsaitləri	5	12,717,838	31,444,189
Digər banklardakı pul vəsaitləri	7	11,732,229	71,532,543
Müştərilərə verilmiş kredit və avanslar	8	144,906,222	45,707,634
Son ödəmə tarixinədək saxlanan investisiya	9	21,756,000	20,452,600
Mülkiyyət və avadanlıq	10	3,982,557	3,815,239
Qeyri-maddi aktivlər	11	69,490	63,174
Digər aktivlər	12	3,883,007	12,523,905
Cəmi aktivlər		199,047,343	185,539,284
Öhdəliklər			
Bank və maliyyə təşkilatlarından kredit ve depozitlər	13	55,714,070	13,116,830
Müştərilərdən depozitlər	14	43,420,323	97,326,797
Təxirə salınmış vergi öhdəliyi	24.2	102,260	-
Digər öhdəliklər	15	131,047	1,053,938
Cəmi öhdəliklər		99,367,700	111,497,565
Kapital			
Nizamnamə kapitalı	16	97,129,890	70,192,320
Yenidən qiymətləndirmə üzrə artım		348,265	351,783
Bölüşdürülməmiş mənfəət		2,201,488	3,497,616
Cəmi kapital		99,679,643	74,041,719
Cəmi kapital və öhdəliklər		199,047,343	185,539,284
Balansdankənar hesab		-	-

Maliyyə Hesabatlarına dair qeydlər
31 Dekabr 2013-cü il tarixinə
Məcmu gəlir hesabatı

	Qeydlər	2013 AZN	2012 AZN
Faiz gəlirləri	17	14,089,379	9,251,133
Faiz xərcləri	17	(4,290,819)	(3,117,007)
Xalis faiz gəlirləri	17	9,798,560	6,134,126
Müştərilərə verilmiş kredit və avanslar üzrə ehtimal edilən zərərlər üçün ayrılmış ehtiyat	8.1	(4,968,484)	(1,666,445)
Ehtimal edilən zərərlər üzrə ehtiyatlardan sonra faiz gəlirləri		4,830,076	4,467,681
Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir	18	2,503,469	1,168,254
Haqq və komissiya gəlirləri	19	2,768,300	4,252,876
Haqq və komissiya xərcləri	20	(608,272)	(412,816)
Əməliyyat gəlirləri		9,493,573	9,475,995
Digər gəlirlər	21	5,085	3,249
Köhnəlmə və amortizasiya xərcləri	22	(265,584)	(263,594)
Son ödəmə tarixinədək saxlanan investisiya üzrə ehtimal edilən zərərlər üçün ayrılmış ehtiyat		(26,600)	(340,000)
İnzibati və ümumi xərclər	23	(6,541,210)	(4,537,185)
Vergidən əvvəlki mənfəət		2,665,264	4,338,465
Mənfəət vergisi	24	(568,760)	(886,756)
İllik mənfəət		2,096,504	3,451,709
Digər məcmu gəlirlər		-	-
İl üzrə cəmi məcmu gəlir		2,096,504	3,451,709

ANTALYA - bu möcüzənin sirri nə vaxt açılacaq?

Fevral ayının sonunda, daha doğrusu, üçüncü ongünlüyündə Antalyada 17-20 dərəcə isti olur. Düzdür, arabir yağış da yağır, ancaq hava soyuq deyil. Günəşin çıxması ilə yerin quruması bir olur. Yerin quruması deyəndə, ağlınıza gətirməyin ki, birdən yağış yağanda Antalyada yağışa-filana rast gələrsiniz. Antalyanın bütün yolları modern üslubda qurulub. Olduqca rahatdır. Vilayət o qədər təmizdir ki, axtarsanız da, belə yollarda adicə bir kibrit dənəsinə, kiçicik kağız qırıntısına da rast gəlməzsiniz. Bilirsiniz bunun səbəbi nədir? Türk insanı öz vətənini, torpağını, şəhərini, kəndini çox sevir. Əhalisinin sayı bir milyon olan Antalyanın simvolu portağaldır. Ona görə ki Antalya portağalın, limonun vətənidir. Burada saysız-hesabsız portağal, limon, nar bağları var. Şəhər başdan-başa bu meyvələrin xoş ətrinə bürünüb. Qeyd etdiyim kimi, elə bir meyvə, tərəvəz yoxdur ki, Antalyada bitməsin. Banan, heyva, alma, nar, armud... Fevralda artıq Antalyada gavalı ağacları çiçəkləyir.

Onu da deyim ki, Antalya turizm mərkəzi olsa da, burada meyvə-tərəvəzin qiyməti olduqca ucuzdur. İnsanlar öz bağlarında yetişdirdikləri portağalın, mandarinlərin, bananın, limonun bir kiloqramını cəmi 50 «quruş»a satırlar.

Diqqətimi çəkən məqamlardan biri də həmin bağların çəpərsiz olmasıdır. Ağaclar meyvələrlə doludur, böyük bir hissə də yerə tökülüb. Ancaq bağın öz yiyəsindən başqa kimsə bura yaxınlaşıb bir meyvə belə götürməz. Bu, heç vaxt baş verməz, ancaq belə bir şey olarsa, çox böyük ayıb sayılar. Bunlardan başqa, Antalyada arpa, buğda, düyü, şəkər də yetişdirilir.

Tarix qarşısında heyrət

Antalya Perqaman, Roma, Bizans, Səlcuq, Osmanlı, Türkiyə Cümhuriyyətinə şahidlik etmiş bir vilayətdir. Ta əskilərdən qədim tarixi bütün dünyada o qədər maraq oyadıb ki, ilin bütün fəsillərində, fevral ayında da çoxsaylı turistlər Antalyaya gəlməyə üstünlük verirlər.

Şəhərin tarixinə qısa nəzər salsaq, görərik ki, bu tarix miladdan öncə ikinci minilliyə gedib çıxır. Bura Perqaman kralı ikinci Atallos tərəfindən bir liman şəhəri olaraq qurulub. Şəhərin Qalançi adlanan yeri qədim tikililərdən ibarətdir. Burada modern evlərin tikilməsinə icazə verilmir.

Qalançidə ucalan Keşik Minarə də qədim tikililərdən biridir. Antalyadakı arxeoloji muzey isə Türkiyənin ən məşhur beş muzeyi içərisində yer alır. Minilliklərdən xəbər verən abidələrdən biri də Roma dövründən qalan Handrianus qapısıdır. Bu qapı o zaman imperatorun gəlişi münasibətilə tikilib. Qapıdan içəri girəndə qədim şəhərin qalıqları ilə qarşılaşırsan. Daha doğrusu, özünü bir anlığa həmin dövrdə hiss edirsən. İndi keçdiyimiz bu yer qədim şəhərin mərkəzi küçəsi olub. Sonra bazar meydanı gəlir. Şəhər ağsaqqalları həmin bu bazar meydanında yığılıb toplantı keçirər, müzakirələr apararlarmış. Evlər, hamamlar, mağazalar, stadion, su saxlanılan yerlər, başqa sözlə, o dövrün su kəmərləri... Əslində düşünürsən ki, bu günümüzdə nələr varsa, məhz ötüb keçən o minilliklərdə əks olunub. Həmin şəhərlərin təməli necə möhkəm qurulubsa, o dövrün insanı necə ağıllı, dərrakəli olubsa, heç bir texnikanın, maşının, filanın olmadığı bir zamanda belə möhkəm qalalar yaradıb, şəhərlər salıb. Üstündən min illər ötsə də, bu şəhərlər, daha doğrusu, onların qalıqları tarixə şahidlik edir. Elə burada da, Antalyanın digər tarixi yerlərində də dünyanın onlarla ölkəsindən olan turistlərə rast gəlirik.

Düzünü deyim ki, Antalya elə bir möcüzədir ki, bilmirəm hansı bir qədim yerindən söhbət açım. Qorxuram ki, hər hansı bir yerindən yazmasam, günaha bataram. Allahıma çox şükürlər edirəm ki, mənə bu şansı verib. Onu da deyim ki, Antalyada yaşayan əhalini də çox şanslı sayıram. Ən azı ona görə ki, onlar tarixin və müasirliyin ünvanı olan bir torpaqda yaşayırlar. Və bununla da qürur duyurlar.



Faselis də bu qədim şəhərlərdən biridir. Təsadüfi deyil ki, milyonlarla xarici turistin üz tutduğu bu tarixi şəhər-qoruqda işləyən Abdullah bir neçə ildir ki, İstanbul Dövlət Universitetinin Arxeologiya fakültəsini bitirib. Deyir ki, burada işləməkdən böyük qürur hissi keçirir. Hər dəfə mənim tariximə, keçmişimə bütün dünyanın hörmət və ehtiramını, sevgisini görəndə fəxr edirəm.

Qədim Faselis şəhəri üç tərəfdən dənizlə əhatə olunub. Şəhərin indi də ucalan qapılarından içəri girərkən başqa bir dünyaya düşürsən. Şəhər miladdan öncə 690-cı ildə radoslu koloniyaçılar tərəfindən tutulub. Buranın əhalisi əsasən ticarətlə məşğul olub. Altıncı əsrdə şəhər farslar tərəfindən tutulub. Beşinci əsrdə isə müstəqil olub. 333-cü ildə Makedoniyalı İsgəndər şəhərə daxil olarkən ona qızıl tac hədiyyə edilib.

Bu şəhərdə də evlərin, hamamların, mağazaların, gimnaziyaların və su kəmərlərinin, bazarın, teatrın və s. qalıqları var, bu gün də durur. Onu da qeyd edim ki, bu qədim şəhərlərdə hamamların sayı çoxdur. Bu da o dövrün insanlarının təmizliyinə bir işarədir.

Aspendos şəhərində isə bu gün də 20 min nəfərdən artıq yeri olan stadion, teatr öz mötəşəmliyini qoruyub saxlayır. Burada indi də beynəlxalq musiqi müsabiqələri, konsert proqramları keçirilir.

Yenə də bu yerdə o dövrdə yaşayan insanların ağlına, mədəniyyətinə, şüuruna və düşüncəsinə heyrətdə qalıram. Bu yerdə istəyirsən ki, kaş, o dövrdə, o insanların arasında yaşayaydın, bizə möcüzə kimi görünən o gerçəkliyi öz gözlərinlə görəydin.

Aspendos da Roma dövründə bir liman şəhəri olub. Miladdan öncə on üçüncü yüzillikdə Morsos tərəfindən qurulub. Altıncı əsrdə Ludiak kralı Kroisos şəhəri ələ keçirib. Sonra isə Aspendosu farslar tutublar. Makedoniyalı İsgəndər dördüncü əsrdə şəhəri farsların əlindən alıb. Roma dönəmində Aspendosun Roma ilə yaxşı əlaqələri olub. Bir zamanlar insanların yaşadığı, qurub-yaratdığı şəhər indi tarixə çevrilib. Nə yaxşı ki, tarix var, bir də bu tarixə şahidlik edən şəhərin əbədi daş yaddaşı ...

Termissos möcüzəsi... Allah mənə dünyanın bir çox möcüzələrini göstərməyi, onlarla baş-başa qalmağı qismət edib.

Çin səddi, Misir piramidaları, Asma bağlar, Mədain xarabalıqları, Babil... Bu dəfə isə sizə, qısa da olsa, Termissos möcüzəsindən söhbət açacağam. Dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən bir şəhərdən. O şəhər ki, hətta miladdan öncə 334-cü ildə Makedoniyalı İsgəndər bu şəhəri fəth etməkdən vaz keçmişdi. Təsəvvür edirsinizmi, o dövrdə dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən bir şəhər? Bunu ağlınıza gətirə bilirsinizmi? 1500 metr hündürlükdə teatrı, stadionu, evləri, su kəmərləri, bazarı, mağazaları olan hündür dağların üzərindəki bir şəhər. Hələ də bu möcüzənin sirri tam açılmayıb. Bu şəhərdə yaşayanlar kimlər olub? Axı, ancaq mədəni insanlar belə mədəniyyət yarada, belə şəhər sala bilərdilər. Elə isə bu insanlar nə ilə qidalanıb, nə ilə məşğul olublar? Bu şəhəri salmaq üçün daşları, lazım olan avadanlıqları necə 1500 metr hündürlüyə qaldıra biliblər? İlboyu Termessosa gələn milyonlarla insan bu suallar qarşısında qalır. Termessos isə dünya tarixinin gerçək möcüzələrindən biridir.

Şəlalələr şəhəri

Antalyaya getsəniz, mütləq yolunuzu bu vilayətin bəzəyi olan şəlalələrdən salın. Bunlardan biri də 45 metrlik Düden şəlaləsidir. Şəlalənin gözəlliyini yuxarıdan seyr edib, insana ruh verən səsini eşitdikdən sonra mütləq qədim mağaranın yolları ilə aşağı düşün. Burada da başqa bir gözəlliklə qarşılaşacaqsınız.

Antalyada nələr yoxdur ki... Sideni, Kəməri, Antalyanın qədim və müasir hissəsini gəzməyi, görməyi, ən əsası isə duymağı unutmayın. Sözüm isə hər il Antalyaya yay tətilinə gedən minlərlə azərbaycanlıyadır. Antalya yuxarıda qeyd etdiyim kimi, təkcə günəşdən, qumdan və dənizdən ibarət deyil. Antalyaya gedərkən, sözün həqiqi mənasında, o tarixi, gözəlliyi öz gözlərinizlə görməyə çalışın. Bu, sizin şansınızdır, belə şansı əlinizdən verməyin.

(ardı var)

Ağanisə SULTANOVA
Bakı-İstanbul-Antalya-İstanbul-Bakı

Bakıda sərnişin gəmisi inşa olunacaq

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sifarişi ilə Bakı gəmiqayırma zavodunda üç sərnişin gəmisi inşa olunacaqdır.

Mayın 30-da Bakı gəmiqayırma zavodu ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC arasında hər biri 80 nəfər sərnişin tutumuna malik, uzunluğu 38,22, eni 8,2, suya oturumu 2,25 metr olacaq üç gəminin inşası ilə bağlı müqavilə imzalanmışdır. Müqaviləni "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və Bakı gəmiqayırma zavodunun baş direktoru Keysi Lam imzalamışlar.

Vurğulanmışdır ki, zavodun tikintisi və istismarı işlərinin həyata keçirilməsi məqsədilə ARDNŞ, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və Sinqapurun "Keppel" şirkəti tərəfindən "Bakı Gəmiqayırma Zavodu" MMC birgə müəssisəsi yaradılmışdır. Təsisçilər arasında 2010-cu il dekabrın 10-da imzalanmış razılaşmaya əsasən, ARDNŞ, AİŞ və "Keppel" zavodun nizamnamə kapitalında müvafiq olaraq 65, 25 və 10 faiz paya malikdirlər.

Bu zavod Xəzər dənizində ən müasir tələblərə cavab verən istənilən növ müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə, dəniz mühəndisliyi işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir.

Şəxsiyyət vəsiqəsinin verilməsinə görə rüsumlar artır

Şəxsiyyət vəsiqəsinin verilməsinə görə rüsumlar artır.

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə yeni rüsumlar müəyyən edib.

Bu gün Azərbaycan Prezidentinin imzaladığı "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa görə, 2015-ci il dekabrın 1-dən şəxsiyyət vəsiqəsi on gün müddətində verildikdə və ya dəyişdirildikdə 5 manat, üç iş günü müddətində verildikdə və ya dəyişdirildikdə 25 manat, bir iş günü müddətində verildikdə və ya dəyişdirildikdə 35 manat dövlət rüsumu ödəniləcəkdir.

Qeyd edək ki, hazırda Azərbaycan Respublikasının vətəndaşlarına şəxsiyyət vəsiqəsi üç iş günü müddətində verildikdə 5 manat, üç iş günündən sonrakı müddətdə verildikdə 1 manat, 25, 35, 50 yaşına çatdıqda, həmçinin onların soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti və hərbi vəzifəsi dəyişdikdə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsinə görə 2 manat, şəxsiyyət vəsiqəsi vətəndaşın öz təqsiri üzündən itdikdə və ya yararsız hala düşdükdə onun dəyişdirilməsinə görə 3 manat dövlət rüsumu ödənilir.

iDEAL DİZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin aparat rəhbəri, iqtisad üzrə fəlsəfə doktoru Vidadi Zeynalova əzizi

ƏSLİ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadə professor

İBRAMXƏLİL İBRAMXƏLİLOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi Cavanşir Yusifova və Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusifova qardaşları

ETİBAR YUSİFOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi nəzəriyyə 2» kafedrasının müdiri professor M.Meybullayev, kafedranın əməkdaşları - professor Q.Manafov, professor Ş.Qafarov, professor F.Mustafayev, dosentlər: - Ə.Əsgərov, F.Hüseynov, Q.Əlləzov, N.Sadıqov, S.Fərəcova, F.Əmirova, Ə.Sərdarov, S.Əhmədov, A.Əliyeva, baş müəllimlər: - Ş.Rzayeva, Ş.Hüseynova, L.Əliyeva, müəllimlər - T.Abbasova, G.Pənahova kafedranın əməkdaşları K.Hüseynova, V.Hüseynova, U.Urşanova, K.Nuhuzadə kafedranın dosenti Akif Məmmədova anası

SİYARƏ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Kamal Abdullayev və Bəybala Ələsgərov professor

İBRAMXƏLİL İBRAMXƏLİLOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ALLAH RƏHMƏT ELƏSİN

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Məmmədhəsən Meybullayev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompüter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 3
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, **"Zaman-Azər" MMC** firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 **İndeks: 0355 Tiraj: 3300**